www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10 fevral 2017-ci il Cümə № 30 (6644) Qiyməti 60 qəpik

Xəbər

## Məcburi köçkün nişan üzüyünü qaytarıb, özünü asdı

yazısı səh.13-də

Gündəm

### Prezident İlham Əliyev şəhid əsgərin ailə üzvləri ilə görüşdü



Dövlət başçısı Milli Qəhrəman Çingiz Qurbanovun ulduzunu atasına təqdim etdi və Ermənistana yenə sərt bəyanatlar ünvanladı

yazısı səh.3-də

### Aprel döyüşləri təkrarlansa... böyük sülhün alternativi böyük müharibədir!

yazısı səh.11-də

### Müxalifət xaricdə Azərbaycanla bağlı dinləmələrə dəvət edilmir-səbəb

yazısı səh.9-da

### Dilqəm Əsgərovun oğlu atasının dəyişdirilməsi xəbərindən danışdı

yazısı səh.13-də

### Lukaşenko Putindən niyə döndü, "Batka" hədəfə gələ bilərmi?

yazısı səh.9-da

### Monopolistlər yerli quş əti istehsalçılarını sıxışdırır

yazısı səh.12-də

### Bakıda kürünün kiloqramı 1500 dollardır

yazısı səh.12-də

### İqtidar nazirləri Hesablama Palatası ilə qorxudur

yazısı səh.7-də

### "Albert Gəncəli" "Lotu Quli" ilə necə düşmən oldu?

yazısı səh.13-də

*Rafiq Əliyev:*

### "Heç yerə getməyəcəyəm"

yazısı səh.4-də

## Dustaq xanımından sensasion açıqlamalar

# 8 İL SONRA RAİL RZAYEVİN QƏTLİNİN ŞAHİDİ ORTAYA ÇIXDI - şok

50 kiloqram qızıla görə tutulan Rövşən Əhmədov generalın qətli haqda şok ifadə vermək istəyir; Hərbi Hava Qüvvələri komandanını öldürən killeri Orta Asiyadan gətirdiblər!; "Rövşən Çingiz Baxşıyevin cinayətlərini Mədət Quliyevə çatdırmaq istəyir"




yazısı səh.5-də

## Lapşinin anası Bakıdan imdad istəyir: "Yalvarıram, onu bağışlayın..."

Yəhudi bloggerin həbsi Qarabağa qanunsuz səfər etmək istəyənlərə dərs olacaq

yazısı səh.8-də



*Mirmahmud Mirəlioğlu:*

### "Beş adamı bir araya gətirə bilməyənlər böyük-böyük danışırlar"

yazısı səh.6-da



*İddia:*

### "Jirinovskini Bakıya Səməd Seyidov gətirib"

yazısı səh.6-da



*Mehman Əliyev:*

### "Qoy desin ki, hakimiyyəti nə zaman və necə qorumuşam"

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 30 (6644) 10 fevral 2017



## Prezident AŞ PA komitəsinin məruzəçisini qəbul edib

**Prezident İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının hüquqi işlər və insan hüquqları komitəsinin Azərbaycan üzrə məruzəçisi Alan Desteksi qəbul edib. APA-nın məlumatına görə, Azərbaycanla Avropa Şurası arasında əlaqələrin 15 ildən çoxdur davam etdirildiyini qeyd edən dövlət başçısı ölkəmizin Avropa strukturları ilə yaxşı əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq, bugünlərdə Avropa İttifaqındakı mühüm və səmərəli görüşlərini xatırlayıb.**

Görüşdə ölkəmizin daha da müasirləşdirilməsi və demokratikləşməsi istiqamətində atılan addımlar, həyata keçirilən islahatlar və iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı görülən işlərdən danışılıb, Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycan və İran prezidentlərinin görüşü keçiriləcək

**"İran və Azərbaycan prezidentləri ECO sammiti çərçivəsində İslamabadda görüşəcəklər". Bunu İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə bildirib. O qeyd edib ki, sammit martın 1-də keçiriləcək. (APA)**

## MKİ şefi Türkiyəyə gəlib



**ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) yeni direktoru Maykl Pompeo Türkiyəyə işgüzar səfər edib. Bu, M.Pompeonun yeni vəzifədə ilk xarici səfəridir. Səfər çərçivəsində M.Pompeo Türkiyənin Milli Kəşfiyyat Təşkilatının rəhbəri Hakan Fidanla görüşəcək.**

Onun həmçinin Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşəcəyi gözlənilir.

Məlumata görə, danışıqlar zamanı regiondakı təhlükəsizlik məsələləri, eləcə də terrorizmə qarşı birgə mübarizə və Suriyadakı əməliyyatlar müzakirə olunacaq.

## Xarici ölkələrin səfirləri Cocuq Mərcanlıya gedəcəklər

**Gələn həftə xarici ölkələrin Azərbaycandakı səfirləri, diplomatik korpusun nümayəndələri Cocuq Mərcanlıya gedəcəklər.**

Bunu İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə deyib. O bildirib ki, səfəri Xarici İşlər Nazirliyi təşkil edib. Səfərin məqsədi Cocuq Mərcanlıda aparılan abadlıq işləri və planlarla tanış olmaqdır. (APA)

## Ermənistan Belarusa rəsmi səfərləri ləğv edib

**Ermənistan polisinin rəis müavini Vardan Yegiazaryanın Belarusa səfəri ləğv olunub. Virtualaz.org xəbər verir ki, bunu Ermənistan hökumətinin mətbuat xidməti bildirib. Məlumatda əlavə olunub ki, Ermənistan baş naziri Karen Karapetyanın Vardan Yegiazaryanın Belarusa ezam edilməsi barədə qərarı ləğv edilib.**

Vardan Yegiazaryan martın 2-5 tarixlərində Minskdə Belarus milisinin yaradılmasının 100 illiyi ilə bağlı tədbirlərdə iştirak edəcəkdi.

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# "Cənab prezident bədxahlara atdığı addımlarla cavab verdi"

**Millət vəkili, Prezident Yanında Qeyri Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev Azərbaycanın Avropa institutları ilə münasibətlərini korlamağa çalışan qüvvələrlə bağlı musavat.com-un əməkdaşının sualına cavab verib. Azay Quliyev "Azərbaycanın Avropa institutları ilə münasibətlərini korlamağa çalışan bəzi qonşu ölkələrin və erməni lobbisinin Avropa Parlamentindəki son fəaliyyətinə niyə bu dəfə rəsmi səviyyədə münasibət bildirilmədi" sualını cavablandırarkən deyib:**



"Məncə, buna lüzum yoxdur, çünki Azərbaycan Prezidenti cənab İlham Əliyev bu bədxahlara sözlə yox, son 3 gündə atdığı addımlarla cavab verdi". Həmin addımlara gəlincə, A.Quliyev onları aşağıdakı şəkildə sıraladı: "Birinci, Avropa İttifaqı ilə Strateji Saziş haqqında sənədin müzakirəsinə start verdi. **2.** Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alan Aleksandr Lapşini Bakıya ekstradisiya etdi. **3.** Döyüş əməliyyatları zamanı xüsusi şücaət göstərən şəhidimiz Çingiz Qurbanovun nəşini Ermənistandan geri alaraq ona Milli Qəhrəman adı verdi. Bu addımlar bədxahların bütün arzularını gözündə qoydu".

## Azərbaycanda güclü və təhlükəli zəlzələ gözlənilmir

**"Azərbaycan seysmoaktiv bölgədə yerləşir. İl ərzində Azərbaycanda və həmsərhəd ərazilərdə irili-xırdalı 9 mindən artıq yeraltı təkan qeydə alınır".**

APA-nın xəbərinə görə, bunu Azərbaycan Milli Elmlər Akademiyasının Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli keçirdiyi mətbuat konfransında deyib. Onun sözlərinə görə, ötən il mərkəz 10 mindən artıq yeraltı təkan qeydə alıb. Onlardan 2 mindən çoxunun dünyada olan zəlzələlərin payına düşdüyünü deyən Q.Yetirmişli qeyd edib ki, qalan 8 minə yaxını Azərbaycan və həmsərhəd ərazilərdə olub. Baş direktor vurğulayıb ki, zəlzələlərin sayına baxmayaraq, Azərbaycanda baş verən zəlzələr fon səviyyədə-zəif və orta gücdədir: "Yalnız ötən il İmişlidə baş verən zəlzələ nisbətən güclü olub. Lakin dərində baş verdiyi üçün fəsadlar törətməyib".

**Q.Yetirmişli qeyd edib ki, bu ilin əvvəlindən Azərbaycan və sərhəd zonalarında 1050-dən çox yeraltı təkan olub:** "Zəif təkanlar olduğundan hiss edilməyib. Amma bu gün ölkədə elə bir bölgə yoxdur ki, orada zəlzələrin baş verməsi üçün güclü hazırlıq getsin. Ümumiyyətlə, Azərbaycanda kotostrafik, güclü və təhlükəli zəlzələ gözlənilmir".

Q. Yetirmişli əlavə edib ki, bu ildən başlayaraq Azərbaycanda seysmik rayonlaşdırma aparılacaq.Seysmik rayonlaşdırılma Almaniya Yer Elmləri Mərkəzi ilə bu ildən ilkin olaraq, pilot layihə kimi Səbayel rayonundan başlanacaq və seysmik aktivlik müəyyən ediləcək. Baş direktor bildirib ki, tədqiqatların aparılması üçün Almaniyadan da cihazlar gətiriləcək və aktivlik müəyyənləşəcək.

## İran ABŞ-ı beynəlxalq məhkəməyə verdi



**İran Haaqa Beynəlxalq Məhkəməsində ABŞ-a qarşı iddia qaldırıb. Bu barədə İRNA-ya İranın hüquq işlər üzrə vitse-prezidenti Məcid Ənsari məlumat verib. Onun sözlərinə görə, buna səbəb İran Milli Bankının ABŞ tərəfindən dondurulmuş əmlakının bir hissəsinin müsadirə edilməsidir.**

"Şikayətin izlənməsi çox ciddi məsələdir və biz Haaqa Beynəlxalq Məhkəməsində ABŞ-a qarşı iddia qaldırmağı bacardıq. Artıq məhkəmə iddiamızı qeydə də alıb", - deyə vitse-prezident bildirib.

## Əl-Babda 5 türk əsgəri həlak olub

**"Fərat qalxanı" əməliyyatı çərçivəsində Suriyanın Əl-Bab qəsəbəsini İŞİD terrorçularından azad etməyə çalışan Türkiyə Silahlı Qüvvələri növbəti dəfə itki verib. Türkiyə Silahlı Qüvvələrinin bölmələri ilə İŞİD terrorçuları arasında baş verən döyüşdə 5 əsgər həlak olub.**

APA-nın "Hürriyet"ə istinadən verdiyi xəbərə görə, döyüşlər hələ də davam edir. Xatırladaq ki, ümumilikdə "Fərat qalxanı" əməliyyatında Türkiyə indiyə qədər 66 hərbçi itirib.

## Bahar Azərbaycana martın 20-də gələcək

**Bu il Azərbaycan ərazisində baharın gəlişi martın 20-si Bakı vaxtı ilə təxminən saat 14:29 radələrində baş verəcək. AMEA-dan APA-ya verilən məlumata görə, AMEA-nın Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının direktor müavini, fizika üzrə fəlsəfə doktoru Xıdır Mikayılov bildirib ki, martın 19-da Günəş səmanın cənub yarımkürəsindən şimal yarımkürəsinə keçid edəcək.**

O deyib ki, həmin an Günəş Yerin hərəkət müstəvisi ilə Yerin ekvator müstəvisinin kəsişdiyi nöqtədə olacaq. Bu nöqtəyə astronomiyada "yaz bərabərliyi nöqtəsi" deyilir. Günəş həmin nöqtədə olanda gecə və gündüz bərabərliyi qeydə alınacaq. Həmin andan şimal yarımkürəsində astronomik bahar başlayır və bu, iyunun 21-dək davam edir.

Qeyd olunub ki, fevralın 21-i Azərbaycanda ilk çərşənbə, martın 14-ü isə axır çərşənbədir.

## Qeyri-sabit hava şəraiti davam edəcək, qar yağacaq

**Fevralın 10-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya bildirilib ki, gecə və səhər bəzi yerlərdə yağıntı olacağı, qar yağacağı ehtimalı var. Mülayim şimal küləyi əsəcək. Havanın temperaturu gecə 0-2° şaxta, gündüz 3-5° isti, Bakıda gecə 0-2° şaxta, gündüz 3-5° isti olacaq.**

Atmosfer təzyiqi normadan yüksək 770 mm civə sütunu, nisbi rütubət 85-95 % təşkil edəcək.

Tibbi-meteoroloji proqnoza gəlincə, fevralın 12-dək Abşeron yarımadasında rütubətli hava şəraitinin üstünlüyü bəzi meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

Azərbaycanın rayonlarında hava şəraitinin arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Gündüz saatlarında bəzi rayonlarda yağıntılarda fasilə olacaq. Ayrı-ayrı yerlərdə duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-8° isti, dağlarda gecə 4-9° şaxta, gündüz 0-4° şaxta olacağı gözlənilir.

## QHT-lərlə bağlı qanunda dəyişiklik edilə bilər

**2000-ci ildə qəbul edilmiş "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən əlavə və dəyişikliklərin olunması ilə bağlı bir sıra təşəbbüslər var. Hazırda qanuna təklif olunan dəyişikliklər Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən öyrənilir.**

Bu barədə AZƏRTAC-a açıqlamasında QHT-lərə Dövlət Dəstəyi Şurasının mətbuat xidmətinin rəhbəri Elməddin Behbud məlumat verib. O əlavə edib ki, ölkəmizdə davamlı olaraq müxtəlif sahələr üzrə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində müvafiq addımlar atılır. Bu, QHT-lərin fəaliyyətini tənzimləyən qanunvericilik aktlarına da aiddir. Şura dövlətin QHT-lərə verdiyi dəstək siyasətinin daha da inkişaf etdirilməsi üçün fəaliyyətini bundan sonra da davam etdirəcək.

## Hər ay 8 valyuta hərracı keçiriləcək

**Azərbaycan Dövlət Neft Fondu (ARDNF) Mərkəzi Bankın (AMB) təşkil etdiyi valyuta hərraclarına 2017-ci il ərzində mütəmadi olaraq orta hesabla 35 mln. ABŞ dolları həcmində valyuta kütləsi çıxaracaq.**

"Report"un analitik qrupu xəbər verir ki, ARDNF tərəfindən il ərzində büdcəyə köçürülməsi nəzərdə tutulan 6,1 mlrd. manat vəsaitin orta illik məzənnəsi 1,75 AZN/USD səviyyəsində nəzərə alınmaqla 3,5 mlrd. dolların satışa çıxarılacağı gözlənilir. Bu da hərracların aylıq 290 mln. dollara yaxın vəsaitin təklif ediləcəyi deməkdir. Ayda 8 hərracın baş tutacağı diqqətə alınarsa, bu, hər hərraca təxminən 35-36 mln. dollar vəsaitin çıxarılacağını göstərir. Belə ki, hazırda ARDNF-in hərraca çıxardığı vəsait də məhz bu qədərdir.

Analitik qrup Azərbaycanda dolların rəsmi məzənnəsinin 1,65 AZN/USD səviyyəsində qədər geriləddikdən sonra təxminən 1,75 AZN/USD-də sabitləşəcəyini ehtimal edir.

YENİ MÜSAVAT
N 30 (6644) 10 fevral 2017

**Azərbaycan prezidenti İlham Əliyev fevralın 9-da Milli Qəhrəman Çingiz Qurbanovun ailə üzvləri ilə görüşüb. AZƏRTAC-ın məlumatına görə, prezident İlham Əliyev deyib ki, Çingiz Qurbanov doğma torpağını müdafiə edərkən qəhrəmancasına həlak olub: "Çingiz böyük qəhrəmanlıq, igidlik göstərib. Düşmənlə üz-üzə qalaraq qeyri-bərabər döyüşdə bir daha düşmənə göstərdi ki, Azərbaycan əsgəri nəyə qadirdir. O, geri çəkilmədi, qorxmadı, baxmayaraq ki, təkbaşına böyük diversant qrupu ilə üz-üzə qalmışdı. Son nəfəsinə qədər vuruşmuş, bir neçə işğalçını məhv etmiş, şəhidlik zirvəsinə ucalmışdır.**

# Prezident İlham Əliyev şəhid əsgərin ailə üzvləri ilə görüşdü

## "Yəqin Çingiz bilirdi ki, ölümə gedir, ancaq buna baxmayaraq, o, Vətən torpağını müdafiə etmək üçün ölümə getdi və şəhidlik zirvəsinə qalxdı"

Biz Çingizlə fəxr edirik. Bütün Azərbaycan Çingizlə fəxr edir. Bu, bir daha göstərdi ki, Azərbaycan vətəndaşı, Azərbaycan gənci, əsgəri heç vaxt bugünkü vəziyyətlə barışmayacaq. Bu, bir daha göstərdi ki, Azərbaycan dövlətinin güclü əsgərləri var. O, böyük vətənpərvərlik, peşəkarlıq, rəşadət göstərdi.

Mənfur düşmən bu dəfə də öz qeyri-insani mahiyyətini bütün dünyaya göstərdi. Bir aydan çox idi Çingizin nəşini qaytarmaq istəmirdi. Azərbaycan dövləti çox böyük səylər göstərdi. Eyni zamanda bizim beynəlxalq təşkilatlara müraciətlərimiz də cavabsız qalmadı. Biz birgə səylərlə Çingizin nəşinin Vətənə qaytarılmasına nail olduq. Bakıda təntənəli vida mərasimi keçirildi. Bundan sonra Çingiz doğulduğu Qusar rayonuna aparıldı və orada təntənəli mərasimlə torpağa tapşırıldı. Fürsətdən istifadə edərək Qusar rayonunun bütün sakinlərinə öz hörmətimi bir daha ifadə etmək istəyirəm. Qusarlılar Çingiz kimi qəhrəman övladı Azərbaycana bəxş ediblər.

Dekabr ayındakı növbəti təxribatın məqsədi aydın idi. Çünki keçən ilin aprel ayında erməni silahlı qüvvələri bizə qarşı silahlı təxribat törətməyə cəhd ediblər. Ancaq bu təxribat nəticəsində özləri peşman olmuşlar. Azərbaycan ordusu onlara elə zərbə vurub ki, bu günə qədər də özlərinə gələ bilmirlər. Aprel döyüşlərindən sonra nəinki Ermənistan ordusu, Ermənistan dövləti silkələndi, generallar poqonlarını, vəzifələrini itirdilər. Ermənistan cəmiyyətində panika, təşviş hökm sürürdü və bu, bu gün də davam edir. Azərbaycan ordusu, Azərbaycan dövləti işğal edilmiş torpaqların bir hissəsini işğalçılardan azad edib. İndi o torpaqlarda bərpa işləri aparılır və Azərbaycan vətəndaşları o torpaqlara qayıdacaqlar.

Apreldən sonra Ermənistan müxtəlif yollarla çalışırdı ki, bu məsələyə digər ölkələri cəlb etsin. Ancaq onların bütün səyləri boşa çıxdı, heç bir nəticə vermədi. Ermənistan-Azərbaycan sərhədində növbəti təxribatın törədilməsi məhz bu məqsədi güdürdü ki, bu dəfə üzv olduğu təşkilatı bu işə cəlb etsin. Bu dəfə də alınmadı. Ona görə ki, Azərbaycan Çingizin simasında bir daha qəhrəmanlıq göstərdi. Ermənistan bir daha gördü ki, hətta bir əsgərimiz onların canlı qüvvəsinə bərpaolunmaz zərbə vura bilər və belə də oldu.





Biz öz torpağımızı müdafiə edirik. Bizim işimiz haqq işidir. Bu məsələdə - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda bütün Azərbaycan cəmiyyəti birdir, həmrəylik göstərir, birlik göstərir. Bu, bizim ümumi məsələmizdir və biz haqlıyıq. Çünki həm tarix, həm beynəlxalq hüquq normaları bizim mövqeyimizi müdafiə edir. Eyni zamanda bu gün Azərbaycan Ermənistanla müqayisədə qat-qat güclü ölkədir, özü də təkcə iqtisadi və hərbi potensialına görə yox. Bax, Çingiz kimi övladlarımız bizim üstünlüyümüzü bir daha göstərir. Onun üz-üzə qaldığı diversantların sayı 10-dan çox idi. Yəqin Çingiz bilirdi ki, ölümə gedir. Yəqin bilirdi ki, qeyri-bərabər döyüşdən salamat çıxmayacaq. Ancaq buna baxmayaraq, o, Vətən torpağını müdafiə etmək üçün ölümə getdi və şəhidlik zirvəsinə qalxdı.

Bütün Azərbaycan Çingizlə fəxr edir. Mən sizə minnətdaram ki, belə gözəl övlad böyütmüsünüz, Azərbaycana bəxş etmisiniz. Ancaq Çingiz ölməyib, o, bizim ürəyimizdə yaşayır, yaşayacaqdır".

Prezident "Azərbaycanın Milli Qəhrəmanı" qızıl ulduzunu şəhidin atası Salman Qurbanova təqdim edib.

**Salman Qurbanov prezidentə təşəkkürünü bildirib:** "Bu ali mükafat təkcə Çingizə deyil, Azərbaycan torpaqları uğrunda canından keçən bütün şəhidlərimizə Sizin tərəfinizdən verilən qiymətdir. Sizə dərin minnətdarlığımı bildirirəm, cənab Prezident. Mən bir şəhid atası kimi, Sizi əmin edirəm ki, Sizin əmrinizlə bu saat da silah götürməyə, Vətənimizin torpağını azad etməyə hazıram. Çox sağ olun, cənab Prezident, Sizə minnətdaram".

# İslam Oyunları hazırlığı - halallıq və təhlükəsizlik məsələsi gündəmdə...

## Hökumət hotellərdə "Halal standartı" layihəsinə başlayıb

**Paytaxt Bakı mayın 12-22-də təşkil olunacaq İslamiadaya (İslam Həmrəyliyi Oyunları) hazırlaşır. Bu beynəlxalq tədbirin digərlərindən fərqi ondadır ki, 10 gün ərzində şəhərimizin qonaqları idmançılar və turistlərin əksəriyyəti məhz müsəlman ölkələrindən gələn inanclı insanlar olacaqlar. Bu mənada inanclı insanların özünəməxsus həyat tərzinin təşkil olunması oyunların təşkilat komitəsi üçün də olduqca önəmlidir. Burada halal qidalanmadan tutmuş, gün ərzində dindarların ibadətinin təmin olunmasına qədər bütün məsələlər nəzərdə tutulur.**

Artıq hökumət İslamiadaya hazırlıqla bağlı hotellərdə "Halal standartı" layihəsinə başlayıb. Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Turizm Assosiasiyası ilə birgə hotellərdə və turizm mərkəzlərində tətbiq olunacaq halal standartları hazırlayacaq.

**Azərbaycan Turizm Assosiasiyası sədrinin müşaviri Müzəffər Ağakərimov mətbuata açıqlamasında deyib ki, İslam ölkələrindən gələn turistlərin məmnunluğunu artırmaq məqsədilə önəmli işlər görülür. Onun sözlərinə görə, İslam Həmrəyliyi Oyunları ilə əlaqədar turistlər üçün hotellərdə namaz otaqlarının təşkili və Azərbaycan Turizm Assosiasiyasının nəzdində yaradılan Bakı ekskursiya bürosunda ərəb və fars dillərini öyrənmək üçün ekskursiya bələdçiləri hazırlanır.** "Turist axını üçün yeni istiqamətlərin müəyyənləşdirilməsinə dair bir sıra təkliflər də irəli sürülür. Turizmin inkişafına hədəflənən daha bir layihə isə "Ticarət festivalları"nın keçirilməsidir. Bununla bağlı işlərə martdan sonra başlanacaq. Mövcud imkanlar və onlardan səmərəli istifadə Azərbaycanı həm region, həm də digər dünya ölkələri arasında cəlbedici turizm məkanlarından birinə çevirəcək".

Qeyd edək ki, halal standartları dedikdə qapalı hovuzlardan istifadə, yəni xanımların və kişilərin bu cür ümumi yerlərdən istifadə qaydaları və s. nəzərdə tutulur. Bundan başqa, restoranlarda spirtli içkilərin və donuz ətindən olan qeyri-halal məhsulların verilməməsi də bu qaydalarda əks olunub.

### Məscidlərin elektron axtarış sistemi hazırlanıb

Qeyd edək ki, Bakıda keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarına 50 müsəlman ölkəsindən idmançı və turistlər gələcək. Onların ibadətinin təşkili, məscidlərdə namaz qılmasının təmin olunması da təşkilatçı qurumların üzərinə düşən vəzifələrdən biridir. Artıq bu istiqamətdə böyük bir addım atılıb. İslamiada ilə bağlı görülən tədbirlər çərçivəsində Azərbaycanda məscidlərin elektron axtarış sistemi hazırlanıb. "Go-Map" portalı Qafqaz Müsəlmanları İdarəsinin saytı üçün Azərbaycan məscidlərinin axtarış xəritəsini təqdim edib. Xəritədə ölkədə rəsmi qeydiyyatda olan və hazırda fəaliyyət göstərən məscidlərin dəqiq ünvanları haqqında məlumat verilir. 4 aya hazırlanan elektron xəritəyə ölkədə olan 700-dən artıq məsciddən 620-si yerləşdirilib. Digərləri də 1 ay ərzində əlavə ediləcək. Mobil telefon istifadəçiləri isə xəritəni açmaq üçün m.gomap.az/qafqazislam keçidindən yararlana bilərlər. Hazırda bu keçid "Android" və "iOS" əməliyyat sistemlərini dəstəkləyən smartfonlar üçün nəzərdə tutulub. İslam Həmrəylik Oyunları ərəfəsində bu sistemin istifadəyə verilməsi yüksək qiymətləndirilir.

Bakı ilə yanaşı bölgələrdəki məscidlərə getmək istəyən turistlər bu arzularını asanlıqla reallaşdıra biləcəklər. Beləliklə, ölkəmiz həm də tarixi- mədəni zənginliyini təbliğ etmiş olacaq.

### Turist müsəlman olarsa....

**Dini məsələlər üzrə ekspert Kənan Rövşənoğlu da bildirdi ki, tətbiq olunan yeni qaydalar normal turizm standartlarıdır:** "Əgər qonaq müsəlman ölkəsindən olacaqsa, o şərtlər nəzərə alınmalıdır. İslam Həmrəyliyi Oyunlarında 57 müsəlman ölkəsindən insanlar gələcək. Bəzisindən sadəcə tamaşaçı heyəti olaraq gələcəklər, bəzisindən də idmançılarla birlikdə böyük komandalar gələcək. Bakıya böyük bir müsəlman turist axını olacaq. Təşkilatçılar da bunu nəzərə alaraq bəzi qaydalara riayət edirlər. Yəqin ki, bununla bağlı İslam Əməkdaşlıq Təşkilatı və müvafiq qurumlarla da məsləhətləşmələr aparılıb. Ancaq bəzi qaydalar var ki, onları İslam Oyunları olmadan da etmək lazımdır. Məsələn, hotellərdə namaz otaqları və ya nömrələrdə Quran kitablarının qoyulması kimi. Amerikada əksər hotellərdə nömrələrdə Bibliya kitabları olur. Bu bir ənənədir. Azərbaycanın müsəlman ölkəsi olması, eləcə də turistlərimizin çoxunun müsəlman ölkəsindən olması bizim turizmçilərinin də bir sıra şərtlərə əməl etməsini tələb edir.

Halallıq məsələsinə gəlincə, "halal" İslamda haram buyurulmamış qidalar və haram qatqıların olmadığı məhsullardır. Yəni qidalarda haram olmayan heyvanların ətindən istifadə nəzərdə tutulur. "Bismillah" ilə kəsilən və digər şəriət qaydalarına riayət edilən qidalar halal sayılır".

### Müsəlmanları İsrail kəşfiyyatçılarına əmanət etmək olarmı?

Digər önəmli bir məsələ isə İslam Oyunları zamanı qonaqların təhlükəsizliyinin təmin olunmasıdır. İddialara görə, Azərbaycanda təşkil olunan beynəlxalq tədbirlərin, dövlət başçılarının səfərlərinin təhlükəsizliyini məhz İsrailin xüsusi xidmət orqanı olan MOSSAD qoruyub. Həm "Eurovision" yarışması, həm də Avropa Oyunları ərəfəsində mətbuatda kifayət qədər bu kimi məlumatlar yayıldı. İddia edildi ki, bu tədbirlərin təhlükəsizliyini təmin etmək istiqamətində İsrailin kəşfiyyat xidməti MOSSAD-la əməkdaşlıq edilib.

Ehtimal edilir ki, Bakının ev sahibliyi etdiyi hər iki beynəlxalq tədbirdə MOSSAD əməkdaşları həm bilavasitə "Eurovision" yarışmasının keçiriləcəyi arenada, həm də həmin ərazinin ümumi təhlükəsizlik çənbərində əsas yer alıblar.

Lakin mayın 12-22-də keçirilməsi nəzərdə tutulan İslam Oyunlarının əsas iştirakçıları və qonaqları müsəlmanlar olduğundan, onlar üçün təhlükəsizliyin İsrail hökuməti tərəfindən təmin olunmasının nə dərəcə arzuolunmaz olduğunu təxmin etmək çətin deyil. Belə olan halda rəsmi Bakı alternativ tədbirlər görməlidir.

**Bu məsələyə münasibət bildirən uzun illər xüsusi xidmət orqanlarında çalışmış Arzu Nağıyev bildirdi ki, MOSSAD-ın Azərbaycanda keçirilən hansısa beynəlxalq tədbirin təhlükəsizliyini tam şəkildə boynuna götürməsi fikri absurddur:** "Bilirsiniz ki, MOSSAD kəşfiyyatla məşğul olur və kəşfiyyatçıların təhlükəsizlik məsələlərini boynuna götürməsi mümkün deyil. Sadəcə, bizim xüsusi xidmət orqanlarının bir sıra ölkələrin xüsusi xidmət orqanları ilə əməkdaşlığı və tərəfdaşlığı var. Lakin geniş mənada hər bir ölkənin xüsusi xidmət orqanı öz ölkəsinin vətəndaşlarının təhlükəsizliyini təmin etməyə borcludur və təmin edir. Həm "Eurovision" mahnı yarışması zamanı, həm də Avropa Oyunları zamanı Azərbaycanın xüsusi xidmət orqanları və hüquq-mühafizə orqanları təhlükəsizliyi təmin etdi və bu işin öhdəsindən uğurla gəldi. Məlum məsələdir ki, bütün ölkələrin xüsusi xidmət orqanları ilə məlumat mübadiləsi olmalıdır. Çünki hansısa ölkənin vətəndaşı Azərbaycanda iştirak edirsə, yerli xüsusi xidmət orqanları qədər həmin ölkələrin təhlükəsizlik orqanları da buna cavabdehlik daşıyırlar. Düşünürəm ki, hər bir nümayəndə heyətinin tərkibində buna məsul şəxslər olur. Onlar yerli xüsusi xidmət orqanları ilə koordinasiya olunmuş formada hərəkət edirlər. İslam Oyunlarının təhlükəsizliyi ilə bağlı hansısa ölkənin bunu tam boynuna götürməsi şayiədən başqa bir məsələ deyil. Təhlükəsizliyin təmin olunması məqsədilə xüsusi plan tərtib olunur, hüquq-mühafizə orqanı olmayan digər təşkilatlara da müvafiq tapşırıqlar verilir və birgə bu məsələlər həll olunur".

❑ Nərgiz LİFTİYEVA

**Fevralın 10-u Azərbaycanın çox dəyərli ziyalılarından biri, AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor Rafiq Əliyevin 75 yaşı tamam olur. Artıq bu əlamətdar gün münasibətilə bir neçə gün əvvəlcədən media orqanlarında, sosial şəbəkələrdə təbriklər yer almağa başlayıb. Diqqətçəkən odur ki, Rafiq Əliyev dünya miqyasında qazandığı böyük uğurlara, kifayət qədər nəhəng elmi dairələrlə yaxın münasibətlərinə rəğmən özünün təvazökarlığı, sadəliyi ilə şəxsinə yönəlik sevgi və rəğbət hissini daha da artırmağa nail olub. Rafiq müəllimin "Yeni Müsavat" a müsahibəsini təqdim edirik:**



# "Heç yerə getməyəcəyəm"

## Rafiq Əliyev: "Allah birini verəndə birini verməz"

***- Rafiq müəllim, sizi ürəkdən təbrik edirəm. İcazə verin barənizdə yazılanlarla tanış olandan sonra bir müşahidəmi bölüşüm: siz xoşbəxt insansınız ki, toplumun sizə böyük sevgisi və sayğısı var.***

- Çox təşəkkür edirəm. Milyonlar olsa, yenə də insanların səmimi sevgisini əvəz edə bilməz. Sizlərin sevgisi hər şeydən üstündür. Mən sizə təşəkkür edirəm.

***- Dünyanın yaxşı-yamanını görmüş dəyərli alimimiz üçün 75 yaş nə deməkdir? Bu zirvədən baxanda ətrafda nələri müşahidə edirsiniz, nələr düşünürsünüz?***

- Təşəkkür edirəm sualınıza görə. Onu yaxşı dediniz ki, bu, doğrudan da bir zirvədir. Bu, Allahın yaratdığı zirvədir. Amma onun ucalığı hər fərd üçün ancaq Tanrı tərəfindən verilir. O zirvə hansı hündürlükdə olur-olsun - yəni bioloji baxımdan, yaş hündürlüyündən deyirəm - baxanda ətraf çox aydın görünür, nə etmisən, nə etməmisən... Mənim bir deyimim var, onu Lütfi-Zadə qoyub internetə. "Tanrı insanı yaradanda tarazlıqda yaradır. Nəyisə verər, nəyisə verməz". Bir adam hesab edirsə ki, onun hər şeyi var-bağışlayın leksikonuma görə- onu nadan adam hesab edirəm. Pulmu, şöhrətmi, başqa nəsə... Elə deyil. Allah birini verəndə birini verməz. İndi mənə elə gəlir ki, mən itkilərimlə, Tanrının izni, sizin kimi dostların dəstəyi ilə nə isə qazanmışamsa, bu, balansdandır. Elə itkim də çox olub. Bilmirəm qazandığım o qədərdir, ya yox. Amma həmişə Tanrıya inandığım üçün deyirəm ki, təxminən bərabərdir.

Çox şeylər eləmək olardı. İndi yuxarıdan, hündürlükdən baxanda belə düşünürəm. Amma təzədən ora, həmin yaş zirvəsinə qalxmaq istəsəm, elə vallah həmin cığırla gedərdim. Axı elə şeylər var ki, məndən asılı deyil. Tanrının verdiyi itkilər var: torpaq itkisi, ailədə olan itkilər. O şeylərə mən təsir edə bilmirəm. Amma yenə də özüm üçün seçdiyim o cığırla gedərdim.

***- Yəqin ki, yubiley yaşında gözlədiyiniz, eşitmək istədiyiniz təbriklər var. Adətən doğum günü, yubiley təbriklərini ilk olaraq kim və ya kimlərdən almısınız?***

- Mən işə gələndə gül mağazasına döndüm. Çünki mən hər ayda iki-üç dəfə həyat yoldaşımın qəbri üstünə gedirəm. Bu günə kimi o məzarın üstündəki qızılgülləri solmağa qoymamışam... Mağazaya döndüm, bir səbət sifariş verdim. Sabah səhər (bu gün-E.P.) mən işə gəlməyəcəyəm, başqa bir yerə də getməyəcəyəm, ancaq özüm-özümlə qalacağam. Gedəcəyəm qəbir üstünə, ən birinci təbriki onun ruhundan alacağam. Mənim onun ruhuna bağışladığım gül onun mənə təbrik gülü olacaq...

***- Allah həyat yoldaşınıza rəhmət eləsin, Rafiq müəllim! Səmimi deyirəm ki, siz yaşınızın bu çağında illər öncə dünyasını dəyişmiş ömür-gün yoldaşınıza yüksək dəyər verməklə də nümunəvi şəxsiyyətsiniz.***

- Minnətdaram, çox sağ olun. Mən Ramiz Rövşəni çox sevirəm, bilirəm ki, siz də sevirsiniz. Onun şeirləri içərisində məni tutanı var: "Qara paltarlı qadın". Özü də bu şeirə mahnı da bəstələyiblər. Həmişə deyir ki, bu şeirin üç müəllifi var: Ramiz Rövşən, Rafiq Əliyev, bir də Rövşən Nicat. Ramiz Rövşən həmişə mənə deyərdi ki, bu şeir onun onluğuna daxil deyil.

*Bu, metafizik bir şeirdir. Məsələn,*

*Bütün məni ağlayanlar kiridi,*

*Sən də kiri, qəbrim damır, ağlama!*

"Qəbrim damır" metafizik fikirdir, metafizik düşüncə tərzidir. Bir neçə il əvvəl Ramizdən zəng edib dedi ki "yaxşı mən sənə tabe oldum". Soruşdum niyə? Qayıtdı ki, bütün dünyada bu şeiri bir nömrəli çıxarıblar, hətta Türkiyə parlamentində qadınlar bu şeiri bir yerdə deyiblər. O çox güclü şeirdir. Rövşən Nicat bəstələyib. Ancaq şeirin ideya müəllifi, ya layihə müəllifimi deyim, mənəm, mənim tərəfimdən ideyası irəli sürülüb. O mənada Ramiz deyir ki, üç müəllifi var.

Ancaq onun başqa bir şeiri də var:

*Göz yaşında çimən dünya,*

*Üzün-gözün təmizdirmi?*

*Qalanların yaddaşında*

*Gedənlərin əzizdirmi?*

Əgər biz gedənləri yaşatmasaq, yaddaşımızda olmasa, onlar yaşamayacaqlar. Onlar yaşamayacaqsa, biz də gələcəkdə yaşamayacağıq, mən belə düşünürəm.



**"Ramiz Rövşən deyir ki, "Qara paltarlı qadın" şeirinin üç müəllifi var: Rafiq Əliyev, Rövşən Nicat və mən..."**

***- Dediniz ki, tək qalacaqsınız. Amma inanmıram ki, sadiq dostlarınız sizi tək qoysunlar...***

- Sizə deyim ki, 2011-ci ildən sonra mən heç bir şey eləmirəm. Amma birdən görürsən zorla gəlib evdən çıxarırlar. Deyəsən, siz deyən düz çıxacaq. Ramizgil adətən məni tək qoymurlar. Başda Ramiz Rövşən olmaqla, dostlar gəlirlər, evdən götürürlər.

***- Rafiq müəllim, yuxarıda ailəyə verdiyiniz dəyərdən danışdınız. Yəqin müşahidə edirsiniz, cəmiyyətimizdə ailə münaqişələri, boşanmalar, intiharlar, dəhşətli faciələr xeyli artıb. Ailə institutunda baş verənlərin səbəbi haqda nə deyə bilərsiniz? Ailə faciələrini necə dayandırmaq olar?***

- Düzdür, bu, sosioloqların işidir. Amma mən bir müşahidəçi kimi deyə bilərəm ki, bunun ən birinci səbəbi sosial-iqtisadi durumdur. Bəzən ailə başçısına utanc gətirir. Yaxud hər bir ailədə tarazlıq olmur ki. Məsələn, görürsünüz ki, həmin iqtisadi faktorlar ailənin dağılmasına, yaxud başqa hadisələrə səbəb olur. İkinci əsas səbəb ədalətin olmamasıdır. Bir "Roma klubu" var, onu çox sevirəm. Vaxtilə onu biz də Azərbaycanda təsis etmişdik, özü də Azad Mirzəcanzadəni rəhbər qoymuşduq. Daha doğrusu, Azərbaycanda bu ideyanın müəllifi mən idim, qərarla onu təsis etdik. "Roma klubu"na dünyanın alimləri yığışar və dünyanı maraqlandıran həmin siz dediyiniz intiharmı, ailə məsələlərimi, bütün bu kimi məsələləri müzakirə edərlər. Onların baxdığı məsələlərdən biri cəmiyyətdə sosial minimum, sosial maksimum problemidir. Yəni ki, ən yüksək maaş alanla ən aşağı maaş alan arasında çox böyük məsafə olmamalıdır. Bax, bu, çox böyük sosial narazılıqlara gətirib çıxarır. Məsələn, niyə kiminsə 17-20 villası olmalıdır, başqası çadırda, ya komada yaşamalıdır? Yəni cəmiyyətin ən böyük göstəricisi o sosial minimumla sosial maksimum arasında olan tarazlıqdır, münasibətdir, orada məsafə çox böyük olmamalıdır. Mən bilən başlıca səbəb budur. Amma çox təəssüflər olsun ki, intihar çoxalıb və psixoloqlar, sosioloqlar onun səbəblərini araşdırmalıdırlar. Tək səbəbləri araşdırılmamalıdır, həm də tənbeh etmək bacarığı olmalıdır.

***- Professor, sizinlə bağlı böyük bir ümidimiz var ki, Azərbaycana Nobel mükafatını qazandıran ilk alimimiz olacaqsınız. Bu sahədə vəziyyət necədir, hansı yeniliklər var?***

- (Gülür) Yüzdə-yüz Allahdır, yüzdə doxsan doqquz insanın... Bu məsələdə 99 faiz Lütfi-Zadənin çalışması var, 1 faiz mənimkidir. Nə informasiya var, ondan alıram. 10 gündən, 15 gündən bir yazır. Elə bu yaxınlarda Finlandiyaya məktub yazmışdı, orda iqtisadiyyat sahəsində Nobel mükafatçıları var. Sonra da mənə yazmışdı. Orda məsələ çətindir. 57 ölkədə ekspertlər var, onlar nominasiya məsələsini müəyyən edir. Nominasiyadan sonra isə komissiyada dünyanın seçilmiş 40-50 nəfər ekspertləri var, onlar səs verir. Amma onun mənə həmişə bir tövsiyəsi var ki, adət eləməlidirlər. Mən SSRİ Dövlət Mükafatını alanda 3-cü cəhddə aldım. Birinci və ikinci dəfə keçmədim. Onda da mənim rəhbərim akademik Petrov idi, "İnterkosmos"un sədri, SSRİ Elmlər Akademiyasının vitse-prezidenti. O deyirdi ki, Rafiq, bu işə adət eləməlidirlər, öyrənməlidirlər. İndi sağlıq olsun, Tanrının işidir.

***- İnşallah. Lütfi-Zadə yəqin ki, doğum gününüzdə sizə telefon açacaq...***

- Hə, həmişə zəng edir. Həm də ki, hər həftə biz danışırıq.

**"İnanıram ki, hökmən o torpaqlara yiyə duracağıq..."**

***- Rafiq bəy, bilirəm ki, Qarabağ sizin üçün çox həssas mövzudur. İndiki situasiyada işğal altındakı ərazilərimizin taleyi ilə bağlı nikbinsiniz, yoxsa bədbinliyiniz daha çoxdur?***

- (*Pauzadan sonra ah çəkir*) Olarmı burada üç nöqtə qoyaq?

***- İxtiyar sahibisiniz. Amma bizim ixtiyarımız yoxdur sizin nöqtələrinizə toxunaq.***

- (Gülür) Amma susmaq özü də bəzən cavabdır. Ola bilər ki, bizim ömrümüz çatmasın. Amma sizin ömrünüz çatacaq, inşallah. İnanıram ki, hökmən o torpaqlara yiyə duracağıq! Hökmən! Nikbin notlarla bitirmək istəyirəm. Çünki mən intellektual gəncləri çox yaxşı , vətənpərvər görürəm. Onlar sabahdır. Mən o sabahı yaxşı görürəm. Nə vaxtsa ora qayıdılacaq. Amma bir dənə ricam var, Allah sizə ömür versin, o vaxt neçə yaşınız olacaq, deyə bilmərəm. Mən bu dünyada olacam-olmayacam, deyə bilmərəm. Amma o yerlərdən qayıdanda bir dənə yazı yazarsınız, mənim bu sözlərimi də əlavə edərsiniz.

***- Rafiq müəllim, Allahdan arzum budur ki, biz azad olunmuş Qarabağdan yazı yazaq, siz də oxuyandan sonra zəng edib təəssüratlarınızı bölüşəsiniz!***

- Amin! Mən sizi bağrıma basıram, hamıya salam-dua deyin. Zənginizə görə təşəkkür edirəm.

❑ **Elşad PAŞASOY**

# Dustaq xanımından sensasion açıqlamalar

**Hazırda 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılan dustaq Rövşən Əhmədov 2009-cu il, fevralın 11-də Bakının mərkəzində qətlə yetirilən Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının (HHQ HHMQ) komandanı, general-leytenant Rail Rzayevin qətli ilə bağlı ifadə vermək istəyir. Rövşən Əhmədov vaxtilə çalışdığı işlə bağlı 8 il əvvəl Bakının mərkəzində törədilən qətl işinin təşkilatçısı haqda bilgilərə malikdir. Onun iddiasına görə, Rail Rzayevi güllələyən killer Orta Asiya ölkələrindən birindən Bakıya gətirilibmiş...**




# 8 il sonra Rail Rzayevin qətlinin şahidi ortaya çıxdı-şok

50 kiloqram qızıla görə tutulan Rövşən Əhmədov generalın qətli haqda şok ifadə vermək istəyir; Hərbi Hava Qüvvələri komandanını öldürən killeri Orta Asiyadan gətirdiblər!; "Rövşən Çingizin Baxşıyevin cinayətlərini Mədət Quliyevə çatdırmaq istəyir"

Bu haqda "Yeni Müsavat"a Rövşən Əhmədovun həyat yoldaşı Xanım Əhmədova məlumat verib.

O bildirib ki, hazırda R.Əhmədovun həyatına təhlükə mövcuddur, onu Penitensiar Xidmətin Müalicə Müəssisəsinə köçürüb orada öldürmək planı var.

### Rövşən Əhmədov kimdir və Rail Rzayevin qətli haqda bilgilərə necə sahiblənib?

**Rövşən Əhmədov 2016-cı ilin aprelində Nəqliyyat Nazirliyində illərlə birgə çalışdığı yaxın qohumu Çingiz Baxşıyevin şikayət ərizəsi əsasında saxlanılıb. Onu Ç.Baxşıyevin 50 kiloqram qızılını oğurlamaqda ittiham ediblər. Hazırda iş üzrə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə məhkəmə prosesi keçirilir. X.Əhmədova vaxtilə Nəqliyyat Nazirliyində müşavir vəzifəsini tutmuş Çingiz Baxşıyevin onun həyat yoldaşını aradan götürmək istəyinin səbəbini belə izah edib:** "Rövşən Əhmədov Dövlət Təhlükəsizlik Xidmətinin rəisi Mədət Quliyevə müraciət edir. O, ölkə başçının müşaviri olan generalın zəhərlənməsi, general Rail Rzayevin öldürülməsi, ölkəyə hansı yollarla narkotiklərin daşınması haqda ifadə vermək istəyir. Rövşəni Dövlət Təhlükəsizlik Xidmətinin təcridxanasına köçürməsələr, Çingiz Baxşıyev əlaqələri vasitəsilə onu da zəhərlədib öldürəcək. Vaxtilə o, general rütbəsində olan müşaviri də Türkiyədən gətirtdiyi həblə zəhərləmişdi. Bunu Rövşən detallı şəkildə bilir. Həmin müşavir 9 ay müalicədən sonra zorla özünə gəldi. Rövşən həmin cinayət haqda məlumatlıdır. Rail Rzayevin killeri haradan gəlib, onu kim gətirdib, bunları da bilir. Çingiz Baxşıyev həyat yoldaşımı məhz bu cinayətlər haqda məlumatlı olduğuna görə öldürtməklə susdurmaq istəyir".

### "Rövşən sonradan onun belə göstərişlərini yerinə yetirməkdən imtina etdi"

**X.Əhmədovanın sözlərinə görə Ç.Baxşıyev əlaqələri, puls həris məmurların əli ilə bir müddət əvvəl onun həyat yoldaşını əvvəlcə Bakı İstintaq Təcridxanasından Şüvəlan İstintaq Təcridxanasına qanunsuz olaraq köçürülməsinə cəhd göstərib:** "Bu cəhdləri baş tutmadı. Çingiz Baxşıyev açıq-aşkar bizə hədə mesajları yollayır, deyir ki, Rövşən Əhmədov susmalıdır, onunla haqq-hesab çəkəcəyəm. Bundan sonra isə mənimlə də haqq-hesab çəkəcəyini deyir. Özü yaxınlarının yanında deyir ki, Rövşən mənim qızıllarımı oğurlamayıb, amma yanımdan getdiyinə görə onu cəzalandıracağam, aradan götürəcəyəm. Məsələ də belə olub ki, Çingiz Baxşıyev 12 il Rövşənlə işləyib. Rövşənin adı "Sərnişinnəqliyyat"da müfəttiş gedirdi. Faktiki isə Çingiz Baxşıyevin göstərişlərini yerinə yetirirdi. Həbsindən az əvvəl Çingiz Baxşıyev Rövşəni gecələr şəhərin müxtəlif nöqtələrinə göndərirdi. Bir dəfə deyib ki, "Comfort taksi"dən bir "BMW X6" götür get "Spar" mağazasına, orada maşının işıqlarını iki dəfə ardıcıl, bir də fə də qısa fasilədən sonra yandır söndür. Maşına gətirib yük qoyacaqlar, həmin yükü götür gəl. Rövşən də onun dediyini etmişdi. Maşına bir böyük çantada ağzına qədər pul qoymuşdular. Ondan sonra Rövşəni bir neçə dəfə "İvanovka" mağazasına göndərmişdi. Orada da eyni qaydada müəyyən işarələr verilərdən sonra maşına böyük "skvoyaj"da pul qoyulmuşdu. Bakıda S.Vurğun küçəsindəki çay fabrikinin yaxınlığına göndərmişdi, oradan da maşına çantalarla pul qoyulmuşdu. Rövşən sonradan onun belə göstərişlərini yerinə yetirməkdən imtina etdi. Bu, Çingiz Baxşıyevin xoşuna gəlməmişdi. Rövşənin "Sərnişinnəqliyyat"dan aldığı aylıq "paket" maaşını kəsdirmişdi. Rövşən də gedib işdən çıxması haqda ərizə yazmışdı. Çingiz Baxşıyev bu haqda məlumat alandan sonra Rövşəni yanına çağırıb dilə tutmağa çalışdı ki, işə qayıtsın. Demişdi ki, illərlə birgə işləyiblər, geri qayıtsın. Bu söhbətdən sonra Rövşənə demişdi ki, guya İranda Azərbaycanın Müdafiə Nazirliyi ilə iş qurur, onu da ora özünün nümayəndəsi kimi göndərəcək, ayda da 500 min dollar əmək haqqı verəcək. Rövşən isə razılaşmadı. Bildirdik ki, həmin iş dediyi qanunsuz fəaliyyətdir. Ona görə də razılıq vermədi. Bundan sonra Çingiz Baxşıyev ona vaxt vermişdi, demişdi ki, əgər təklifi ilə razılaşmasa, oğlumuzu ön cəbhəyə göndərəcək və orada öldürtdürəcək. Bu söhbət 2016-cı il aprelin 2-də olmuşdu. Onun dediklərindən əsəbiləşən Rövşənlə Çingizin aralarında böyük mübahisə olmuşdu".

### "Rövşəni dindirsələr, Rail Rzayevin qətli, general rütbəli müşavirin zəhərlənməsi..."

**X.Əhmədova deyir ki, bu mübahisədən 2 gün sonra Ç.Baxşıyev həyat yoldaşına şər atmaqla onun tutdurub:** "Aprelin 4-də Çingiz Rövşəni qondarma, yalan şikayəti əsasında həbs etdirdi, aprelin 19-na qədər sənədsiz-sübutsuz onu həbsdə saxlatdırdı, həmin gün də ittiham verdirdi. Əgər Rövşən Çingizin 50 kiloqram qızılını oğurlayıbsa, niyə həmin qızılların pulu ilə məni müalicə etdirməyib? Axı mən 5 ildir ki, onkoloji xəstəyəm, kimyəvi terapiya hesabına yaşayıram. Pulumuz olsaydı, əməliyyata gedərdim. Çingiz Baxşıyev bütün bunları ona görə edir ki, Rövşən onun böyük dövləti cinayətləri haqda bildiklərini kimsəyə çatdıra bilməsin. Bilir ki, Rövşəni dindirsələr, Rail Rzayevin qətli, general rütbəli müşavirin zəhərlənməsi, ölkəyə at südü adı altında daşınanların əslində nə olduğunu açıb deyəcək. Çingiz Baxşıyev bu gün var gücü ilə çalışır ki, Rövşəni Bakı İstintaq Təcridxanasından çıxarsın, müalicə müəssisəsinə köçürüb orada öldürtsün. Rövşən onun cinayətlərinin lazımsız şahidinə çevrilib deyə onu hər vasitə ilə susdurmaq istəyir. Rövşən isə məhkəmədə susmur, danışır, bildiklərini deyir. Çingiz Baxşıyev acgöz adamlarla əlbir olub Rövşənə qarşı ölüm aktını təzləşdirmək üçün əlindən gələni edir. Özü deyir ki, Rövşəni susdurmaq üçün qızıl söhbətini ortaya atıb. Təsəvvür edin ki, bütün nəsli bir-birinə düşmən edib. Rövşənin Salyanda yaşayan bacılarını da onun üzünə qoyub. Guya Rövşən onları döyüb. Çingiz Baxşıyev Rövşənin bacısı Zərinə İsmayılovanın oğlu Təhmasib İsmayılovu narkotiklə həbs etdirəcəyi ilə hədələyib və öz doğma qardaşının üzünə qoydurub. Mən tələb edirəm, Rövşən oğurladığını iddia etdiklərini qoysunlar ortaya. Bu adam 3 gün əvvəl mühafizəçisini göndərib, deyir ki, qızılları istəmirəm, evinizi adıma keçirin, Rövşəni həbsdən çıxarım. Çingiz Baxşıyev görür ki, verdirdiyi saxta ittiham təsdiqini tapmır, bu yolla istəyir ki, bizi suçlu çıxarsın. Evi adına keçirək, desin ki, qızılların əvəzinə evi mənə verdilər. İstəyir ki, bu yolla saxta ittihamı təsdiqlətsin, Rövşəni uzunmüddətli həbsə göndərib orada öldürülməsinə nail olsun. Məni bu gün heç kim eşitmir".

### "Yalandan deyirlər ki, guya Bakıya at südü daşıyırlar"

**X.Əhmədova ölkə başçısına videomüraciətinin hazır olduğunu, özünün və həyat yoldaşının başına bir iş gələrsə, ölkə rəhbərliyinə, beynəlxalq təşkilatlara göndəriləcəyini də açıqlayıb:** "Rövşənin Çingizin elə cinayətləri haqda bilgisi var ki, bunu Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyevə çatdırmaq istəyir. Onu DTX-nin təcridxanasına köçürsünlər, orada təhlükəsizliyinə təminat versinlər, o bütün bildiklərini danışmağa, deməyə hazırdır. Çingiz Baxşıyev bu gün vaxtilə Rövşənə gördürtdüyü işləri öz kürəkəni Mübariz Ələkbərova gördürür. "Comfort taksi"dən bahalı "BMW", "Audi" götürürlər, Salyan yolundakı xüsusi məntəqəyə, Quba yolundakı xüsusi məntəqəyə, Astaradakı yerlərə gedib maşına yükü vurub Bakıya gətirirlər. Yalandan deyirlər ki, guya Bakıya at südü daşıyırlar. Rövşən bunları bildiyi üçün onu aradan götürmək istəyir. Rail Rzayevin qətli də bu işlərə görədir. Rail Rzayev də, Çingiz Baxşıyev də, başqa bir general da Salyandandırlar. Bir-birilərini tanıyıblar, münasibətləri olub. Bu qətl elə-belə törədilməyib".

❑ E.MƏMMƏDƏLİYEV

# Ana oğlunun ölümünün obyektiv araşdırılmasını istəyir

**"Oğlum Elşən Hüseynlinin yol polisləri tərəfindən öldürülməsi və cinayət işi açılmaması ilə bağlı müntəzəm olaraq sizlərə müraciətlər edirik. Və təmin olunanadək də edəcəyik" - bu sözlər zərərçəkmiş Nübar Heydər qızı Hüseynovun hüquq-mühafizə orqanlarının rəhbərlərinə yazdığı məktubdan götürülüb. N.Hüseynova və həyat yoldaşı Əli Hüseynov bu günə qədər ən müxtəlif instansiyalara üst-üstə 500-dən artıq məktub yazıb, yeganə övladlarının ölüm işinin obyektiv araşdırılmasını istəyiblər. N.Hüseynova sonuncu məktubunda yazır: "Müraciətlər araşdırılmaq üçün Baş Prokurorluğa ünvanlanır.**

Orada isə heç bir istintaq əməliyyatı aparmadan eyni məzmunda və Binəqədi prokurorluğunda hazırlanmış saxta sənədlər əsasında cavablar yazırlar. Hadisə zamanı həyat yoldaşım Əli Hüseynov oğlumun yanında olub. Hadisənin şahididir. O, şahiddir ki, oğlumun idarə etdiyi maşını yol polisləri Sulutəpə dairəsində saxlayıblar. Cinayət də orada baş verib. Binəqədi prokurorluğu cinayəti gizlətmək üçün hadisənin 11-ci kilometrdə baş verdiyini göstərirlər. Demək, Sulutəpə Az 10 YP 773 saylı maşında xidmət edənlərə aid ərazi deyilmiş. Demək, oğlum həm qanunsuz saxlanıldığına, həm yol polisinə aid ərazi olmadığına, həm də polis vəzifəsini düzgün icra etmədiyi üçün onlarla mübahisə edib. Və bu mübahisə zəminində oğlum polis maşınının içərisindən vurulan qəfil zərbədən elə polis maşının qabaq qapısı önündə yıxılıb. Oğlum sifətindən çapıq və gicgahından zədə almışdı. Binəqədi tibb eksperti Zahir Hüseynov ilkin baxış zamanı bildirdi ki, bu çapıq və zədə təzədir, küt alətlə vurulub. Çapıq yerindən isə qan çıxmamışdı. Qan çıxmamasının səbəbini ekspert açıqladı ki, bu çapıq qəfil zərbədən alındığı üçün beyində damar tıxanması alınıb, bu səbəbdən çapıq yerindən qan gəlməyib, ürək çatışmazlığı baş verib. Lakin son rəy verəndə Hippokrat andına naxələf çıxan ekspert bütün olanları gizlətdi. Qanunun saxta üzündən istifadə etdilər".

**N.Hüseynova yazır ki, nə cinayət işi açılıb, nə də polislər sorğuya alınıb:** "29 gündən sonra qərara gəldilər ki, guya oğlumuz xəstə imiş. Oğlum tam sağlam olub, hadisədən 2 ay öncə ABŞ səfirliyinin xətti ilə Bakı Beynəlxalq SOS klinikasında və mərkəzi klinikadan tam tibbi müayinədən keçmişdi. Sağlamlığında heç bir patologiya aşkar olunmamışdı. ABŞ səfirliyindən götürülən bu mühüm tibbi sənədləri də nəzərə almadılar. Sizdən də ana kimi xahiş edirəm, oğlumun qanının yerdə qalmaması üçün cinayətin araşdırılmasını Dövlət Təhlükəsizlik Xidmətinə ünvanlayasınız".

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 30 (6644) 10 fevral 2017

# "5 adamı bir araya gətirə bilməyənlər böyük-böyük danışırlar"-REAL-ın təklifinə reaksiyalar

**REAL hərəkatının İdarə Heyətinin üzvü Azər Qasımlı novator.az-a müsahibəsində ölkə müxalifətinin indiyə qədər yaratdıqları birliklər və hazırkı durumu ilə bağlı maraqlı fikirlər səsləndirib. O, hazırda demokratik düşərgənin qarşısında həll olunmalı üç məsələnin olduğunu bildirib.**

O deyib ki, daha əvvəl yaranmış bloklar, birliklər uğur qazana bilməyib: "Uğursuzluğun əsas səbəbi müxalifətin hər zaman vahid namizəd və ya ana müxalifət məsələlərini önə çəkməsidir. Hər iki məsələdə müxalif təşkilatlar arasında, hətta blokların və birliklərin daxilində çəkişmələr və ciddi rəqabət yaranıb. Sanki təşkilatlar öz aralarında rəqabət aparmaq üçün ittifaqa daxil olublar. Müxalifət heç bir zaman birgə proqram və ya platforma, birgə komanda ideyaları ilə birləşməyib. Partiyalar bu iki məsələdə konsensusa gələ bilsəydi, digər bütün məsələləri, o cümlədən vahid namizəd məsələsini də həll edə bilərdi. Təəssüf ki, birliklər yarananda bütün şərtlər, strateji və taktiki addımlar əvvəlcədən razılaşdırılmayıb, öhdəliklər əvvəlcədən rəsmiləşdirilməyib. Həm də müxalif partiyalar daim müxtəlif birliklərə özlərinə yaxın təşkilatların gəlməsi üçün yarışıblar. Nəticədə heç bir nüfuzu olmayan şəxslər və ya təşkilatlar ittifaqlarda yer alıb. Hakimiyyət bu tip təşkilatları və insanları çox asanlıqla ələ almağı bacarıb, onların vasitəsilə müxalif birlikləri zəiflədib və çökdürüb. Müxalifət üç məsələni həll etməlidir: proqram və komanda, kölgə kabineti əsasında birləşmək; güc mərkəzlərini müəyyən edəcək mexanizmi axtarıb tapmaq; əsas müxalif təşkilatları birləşdirmək".

REAL funksionerinin fikirləri ilə bağlı müxalifətin mövqeyini aldıq.

AXP lideri Pənah Hüseyn mövqeyini bu cür sərgilədi: "Seçkilər ərəfəsində müxalif birliklərin bir qurumda təmsil olunmaları düşərgənin güclənməsinə səbəb olub. Müxalifət bir yerdə olanda pərakəndə olduğundan daha güclü olur. Proseslərə təsiri də daha güclü olur. Hakimiyyətə gəlmək şansı da birlik olanda ayrı olduğumuz dövrlərdən daha yüksək olub. Bunları mütləq nəzərə almaq lazımdır. İndiyə qədər olan mövcud hakimiyyətin fəaliyyəti, yürütdüyü siyasət müxalifətin bir araya gəlməsini diktə edir. Komanda və platformadan öncə əsas vacib olan lider məsələsidir. Bizdə prezident idarə üsulunun olduğunu nəzərə alsaq, vahid bir qurumun yaradılması hər zaman vacib olub. Bir siyasi partiyanın qurumda təmsil olunmaması bütövlükdə birliyin olmaması anlamına gəlməməlidir. Söhbət cəmiyyətdə ciddi nüfuzu olan, proseslərə təsir gücündə olan şəxslər və qurumlardan gedir. Hazırkı durum bütün qüvvələrin birliyinə zəmin yaradır. Bu birlik ziyalıların, gənclər təşkilatlarının, bütövlükdə müxalif insanların



**Pənah Hüseyn:** "Komanda və platformadan öncə əsas vacib olan lider məsələsidir"



**Mirmahmud Mirəlioğlu:** "Təkliflərdə heç bir yenilik yoxdur"

bir araya gəlməsi kimi başa düşülməlidir. Bu dəqiqə əsas mövzulardan biri bir liderin prezident seçkilərində vahid şəkildə iştirakı ilə bağlıdır. Bu, təkcə 2018-ci ilin prezident seçkilərinə hazırlıq kimi də başa düşülməməlidir. Ola bilər ki, siyasi partiyalardan o seçkilərdə iştirak etməyən qurumlar olsun. Cəmiyyətdə seçki mühitinin yaradılması və 2008-ci ilin prezident seçkiləri xatırladılmadan, gələnilki seçkilərə hazırlığın startı indi verilməlidir. Proseslərin gedişində konkret bir şəxsin namizədliyi üzərində dayanılmalıdır. İstənilən qurumun öz platforması var. Siyasi qurumlar platformalar ətrafında birləşmirlər. Yeri gəlmişkən, bir sıra siyasi partiyalar artıq gələnilki seçkilərlə bağlı müzakirələr aparırlar. Eyni zamanda digər siyasi qurumlarla da müəyyən məsləhətləşmələr aparılır. Antiböhran koalisiyasına daxil olan partiyaların da bu mövzuda tədbir keçirməsi gözlənilir".

**KXCP sədri Mirmahmud Mirəlioğlu sərt danışdı:** "Hər kəs gördüyünü, eşitdiyini, oxuduğunu təqdim etməyə çalışır. Hesab edir ki, bu bir siyasətdir. Biz illərdir bu məsələlərlə məşğuluq. Burada heç bir yenilik yoxdur. Bütün dünyada plagiatlıq baş alıb gedir. Azərbaycanda yeni fikir demək iddiasına düşənlər var. Partiya yaratmaq eşqinə düşüblər. Partiyaların adını daha güclü qoymaq istəyirlər. Gənclərimiz də düşünürlər ki, nəsə yeni bir şey deyirlər. Amma burada heç bir yenilik yoxdur, Azər Qasımlının dediklərində də. Bu baxımdan mövqe bildirməyə ehtiyac yoxdur. Şərtlərdən, 3-5 məsələnin olduğundan danışırlar. Beş adamı bir araya gətirə bilməyənlər böyük-böyük danışırlar. Onlar əslində Azərbaycanın probleminə çevrilirlər".

❑ Cavanşir ABBASLI



# "Qoy desin ki, hakimiyyəti nə zaman və necə qorumuşam"

## Mehman Əliyev "muzdlu jurnalist" ittihamına cavab verdi

**"Azadlıq" qəzetinin köşə yazarı Xaliq Bahadır "24 il, bir gün, bir an" başlıqlı köşə yazısı yazıb. Qəzetin eyniadlı saytında yer alan yazı Lavrova sual verdiyi üçün işdən çıxarılan jurnalist Anar Həsənova həsr olunub. Yazının "Kampaniya kompanyonları" yarımbaşlıqlı hissəsində X.Bahadır "Turan" agentliyinin rəhbəri Mehman Əliyevin ünvanına ağır ittihamlar səsləndirib. O deyib ki, Mehman Əliyev "Yeni Müsavat"a müsahibəsində Prezident Administrasiyasının göstərişi ilə Anarı "muzdlu jurnalist" adlandırıb. Sitat: "Görəsən, hər seçki (referendum) qabağı hakimiyyəti qoruma funksiyasını üzərinə götürən Mehman Əliyevi də "muzdlu jurnalist" adlandırmaq olarmı?"**

Bir daha qeyd edək ki, "Turan" informasiya agentliyinin direktoru M.Əliyev sözügedən açıqlamasını "Yeni Müsavat" qəzetinə verib. Bu səbəbdən də X.Bahadırın ittiham xarakterli iddialarına münasibət öyrənmək istədik. Müsahibimiz dedi ki, öz fikrində qalır və A.Həsənovla bağlı məsələdə fikirləri dəyişməyib: "Mən jurnalistəm. Təhsilim jurnalistikadır. Peşə əxlaq kodeksinə hörmətlə yanaşmışam hər zaman. Məhz buna görə də bu 26 il ərzində "Turan" olaraq bir dəfə də məhkəməyə verilməmişik. Biz hesab edirik ki, yüksək standartlarla fəaliyyət göstəririk. Yenə də öz mövqeyimdə qalıram ki, jurnalist məsuliyyətli olmalıdır. Sualın qoyuluşuna diqqət etmək, ona hansı cavabların veriləcəyini hesablamaq lazımdır. "Kimə istəyirəm, necə istəyirəm... " deyə sual vermək olmaz. Ya da ki, belə sual verirsənsə, nəticələrini də nəzərə almalısan. Məsələn, ortaya belə nəticələr çıxanda heç kim deməsin ki, bu, qərəzli mövqedir. Yenə də təkrar edirəm ki, Anar Həsənov muzdlu jurnalistdir. Bəli, onun konkret olaraq sahibləri var. Ona vəsait verən, tabe olduğu redaksiya var. Redaksiyada işləyir və muzdlu jurnalist olaraq çalışır. O redaksiya hansı qərarı verirsə, ona da tabe olmalıdır. Mənim jurnalistlərim də status yazıblar. Ya da hansısa yazını düzgün yazmayıblar, xəbərdə yanlışlığa yol veriblər. Amma mən buna görə heç kimi işdən çıxarmamışam. Redaksiya buna qərar verirsə, özü bilər. Hansı redaksiyada necə qərar verirsə, bu, onların daxili işidir. Amma jurnalist məsuliyyəti, prinsipləri anlayışı var".

**M.Əliyev X.Bahadırın "hər seçki (referendum) qabağı hakimiyyəti qoruma funksiyasını üzərinə götürən Mehman Əliyev" ittihamına da aydınlıq gətirdi. Dedi ki, qoy bunu yazan X.Bahadır hakimiyyəti nə zaman və nə ilə qoruduğutu da konkret açıqlasın:** "Və onu da desin ki, hakimiyyət bunun müqabilində mənə nə verib? Demişəm ki, islahatlar olacaq, gündəm dəyişəcək. Referendum keçirilib, aprel-mart ayında islahatlara başlayacaqlar. Hamı deyirdi ki, deyəsənb Mehman Əliyev də dəyişib. Amma ölkədə tamam başqa situasiya yarandı. Mən demirəm ki, ölkə dəyişdi, demokratiya quruldu. Amma ölkədə durğunluq dövrü bitdi. Bu da ölkədə bəzi sahələrdə islahatları ortaya qoyub. Başqa yol yoxdur. Azadlıqların qorunması, islahatların edilməsi asan məsələ deyil".

❑ Sevìnc TELMANQIZI

# Jirinovskini Bakıya Səməd Seyidov gətirib iddiası

## Politoloq Mübariz Əhmədoğlu LDPR liderini müdafiə etdi, amma...

**2014-cü ildə Bakıda səfərdə olan, paytaxtın mərkəzi və tarixi küçələrində gəzən Rusiya Liberal Demokrat Partiyasının sədri, Dumanın deputatı Vladimir Jirinovski növbəti dəfə Azərbaycanın əleyhinə danışıb. Ancaq nədənsə, onu Bakıya gətirənlər susurlar...**

Tarixə qayıdaraq qeyd edək ki, 2014-cü il sentyabrın 27-də ölkəmizdə səfərdə olan Vladimir Jirinovski dövlət rəhbərləri ilə də görüşmüşdü. Həmin səfər çərçivəsində Bakını gəzən Jirinovski jurnalistlərə də açıqlama verib bildirmişdi ki, Azərbaycan heyrətamiz ölkədir, Bakı isə çox gözəl şəhərdir. Bakını gəzən zaman və rəsmi görüşlərində onu parlamentin deputatı Səməd Seyidov da müşayiət edirdi. Belə bir iddia da var ki, Jirinovskinin ölkəmizə səfərini də o təşkil edib. LDPR liderinin Azərbaycan barəsində son fikirləri ilə bağlı S. Seyidovun münasibətini öyrənməyə cəhd etsək də, buna nail ola bilmədik.

Mövzu ilə bağlı **"Yeni Müsavat"a danışan politoloq Mübariz Əhmədoğlu** bildirdi ki, rəsmilər çox operativdirlər və onlar hansı məsələyə necə reaksiya vermək lazım olduğunu gözəl anlayırlar. Politoloq hesab edir ki, Azərbaycanla bağlı məlum fikirləri Jirnovski istəmədən söyləyib: "Jirinovski həqiqətən anti-Azərbaycan və antiermənı olub. Ancaq Dövlət Dumasına son seçkilərdə o çalışdı ki, Rusiyadakı ermənilərə söykənsin. Hətta o, Moskvada ermənilərin işlədiyi müəssisələrdə, o cümlədə Rusiya Elmlər Akademiyasının bəzi institutlarında görüşlər keçirdi ki, bütün erməniləri öz ətrafına cəmləsin. Sonradan isə bəlli oldu ki, Jirinovski səhv etdi. Çünki elə də uğur qazana bilmədi. Həmçinin bu ərəfələrdə Azərbaycanın da apardığı siyasət, heç şübhəsiz ki, onda simpatiya yaradırdı. Bundan başqa Rusiya rəhbərliyinin Azərbaycana münasibətinin dəyişməsi, eləcə də ermənilərə etdiyi yuxarıda qeyd etdiyimiz yatırımın boşa çıxması Jirvnovskinin üzünün bizə tərəf çevrilməsinə səbəb oldu. Əvvəllər Jirinovski erməniləri əlində alət edib, Azərbaycanın əleyhinə kampaniya aparırdı. Ancaq indi bir kəlmə sözü ilə biz deyə bilmərik ki, Jirinovski təzədən həmin mövqeyə qayıdıb, ermənilərin adamı oldu və yenə də Azərbaycanın əleyhinə danışacaq. Bu həmin Jirinovskidir ki, məlum fikri işlətməmişdən bir az qabaq Belarusu da çağırırdı ki, gəl Rusiyanın tərkibinə qatıl. Ancaq sonradan bildirdi ki, elə bir fikir söyləməmişəm. Fikrini başqa cür izah etdi. Hazırda Jirinovski üçün prioritet məsələ Azərbaycan və Türkiyə ilə olan əlaqələrdir. Buna görə də düşünmürəm ki, o, Azərbaycana qarşı nə isə desin. Onun fikirləri təsadüfən ağzından çıxan sözdür. Hər halda, hər kəs vəziyyəti izləyir".




**Politoloq bildirib ki, o qənaətə gələ bilmərəm ki, Jirinovski Azərbaycanı parçalamaq və ya hansısa imperiyanın tərkibinə salmaq istəyir:** "Əlbəttə ki, mənimlə birlikdə bunu çox adam düşünür. Hər halda, bu barədə məlumatım olmasa, söyləmərəm. Mətbuat gözəl iş görüb məsələni qaldırır. Düşünürəm ki, bütün bunları rəsmilər də izləyirlər. Azərbaycanın xarici siyasət məsələləri ilə bağlı rəsmilərimiz çox həssas və operativdirlər. Əgər ehtiyac olsa dərhal aktivləşmə olar. Mətbuat da, ictimai mühitin digər sturukturları da ehtiyac olarsa, aktivləşər".

❑ Əlì RAÌS

**Neft bumunun bitməsi ilə Azərbaycanda dövlət büdcəsinə daxilolmaların kəskin azalması iqtidarı artıq daha sərt maliyyə siyasəti yürütməyə məcbur edib. Hazırda iqtidarın nazirliklərə, komitələrə və icra başçılarına qarşı ən ciddi "silahı" isə Hesablama Palatası adlanan qurumdur.**

# İqtidar nazirləri Hesablama Palatası ilə qorxudur

## Ekspert deyir ki, qurumun səlahiyyətləri artırılmalıdır



Son günlər ayrı-ayrı dövlət qurumları Hesablama Palatasından gələcək yoxlamalarla bağlı təşviş içindədir. Səbəb isə son illər Hesablama Palatasının fəaliyyətində nəzərəçarpacaq güclənmədir. Hazırda bu qurumun səlahiyyətləri hiss olunacaq dərəcədə güclənib və istədiyi qurumda yoxlamalar aparmasıdır. Əgər illər öncə, ayrı-ayrı qurumlarda yoxlamalar aparılmasına həmin qurumların rəhbərləri tərəfindən maneələr törədilirdisə, indi tam əks mənzərə yaranıb.

**Böyüklüyündən asılı olmayaraq hər bir dövlət qurumu Hesablama Palatasının yoxlamasından qorxur. Buna səbəb isə son vaxtlar Hesablama Palatasının apardığı obyektiv yoxlamalar və üzə çıxardığı neqativ hallardır. Palatanın sədri Vüqar Gülməmmədov hazırkı vəziyyətlə bağlı modern.az-a danışarkən bildirib ki, dövlət vəsaitlərindən istifadə edən hər bir qurum kənar maliyyə nəzarətinin subyektidir və bu istiqamətdə "xırda təşkilat" -"böyük təşkilat" anlayışı yoxdur:** "Həmin təşkilatların hamısı maliyyə inzibatçılığının yüksək dərəcədə təmin edilməsində bərabər məsuliyyət daşıyır. Hər bir inzibati ərazi vahidi üzrə icra hakimiyyəti orqanı ölkə başçısının müəyyən etdiyi iqtisadi və sosial prioritetlərin icraçısı funksiyasını daşıyır. Yerli icra hakimiyyəti orqanlarına yerli xərclərlə yanaşı, dövlət əsaslı vəsait qoyuluşundan və ehtiyat fondlardan yol və sosial infrastrukturun tikintisi və təmiri ilə bağlı kifayət qədər vəsait ayrılır. Digər tərəfdən, Hesablama Palatası Bakı şəhər İcra Hakimiyyətində, "Azərsu" "Azərenerji" və "Azəriqaz" kimi ASC-lərdə, Dövlət Neft Fondu, Gənclər və İdman, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri və digər qurumlarda nəzarət tədbirləri həyata keçirib".

**V.Gülməmmədov onu da deyib ki, mövcud qanunvericiliklə, Hesablama Palatasının fəaliyyətinə qanunazidd müdaxilə etmək yolverilməzdir:** "Palata üzvlərinin, habelə Hesablama Palatası Aparatının vəzifəli şəxslərinin xidməti vəzifələrini yerinə yetirmələri ilə əlaqədar onlara mane olmaq, təzyiq göstərmək Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur. Palata işini sərbəst şəkildə həyata keçirir. Qeyd edim ki, mən Palatada 2007-ci ildən çalışıram. Bu müddətdə işimizə müdaxilə edən və şəffaflığın təmin olunmasına maneçilik törədən qurum olmayıb".

Hazırki durumda, büdcə vəsaitlərinin məhdud olduğu bir vaxtda dövlət qurumlarının xərcləmələrinə nəzarətin aparılması ekspertlər tərəfindən də müsbət qiymətləndirilir.

**İqtisadçı ekspert Rəşad Həsənov da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hələ 2013-cü ildə Hesablama Palatasının Azərbaycanda fəaliyyəti ilə bağlı bir tədqiqat aparıblar:** "Eyni zamanda bunun nəticələri olaraq, palatanın nəzarət imkanlarının genişləndirilməsi, səlahiyyətlərinin artırılması və bunların konstitusion təsdiqini təklif etmişdik. Problem ondadır ki, Azərbaycanda ictimai vəsaitlərə kənar nəzarətin təşkili kifayət qədər zəifdir. Biz bu institutların fəaliyyətinin gücləndirilməsi ilə bağlı cəhdləri də hiss etmirdik. Məsələ ondan ibarətdir ki, ölkənin vəsaitləri çox idi, neft gəlirləri bu vəsaitlərə nəzarət üçün ehtiyac yaratmırdı, hətta bilərəkdən nəzarət imkanları məhdudlaşdırılırdı, bu yola iri məbləğlərdə vəsaitlər səmərəsiz şəkildə istifadə olunur, korrupsiyanın obyektinə çevrilirdi. Hazırda Azərbaycanda ictimai vəsaitlərə kənar nəzarəti təmin edən qurum, audit institutu Hesablama Palatasıdır. Hesablama Palatasının səlahiyyətlərinin artırılmasına ehtiyac var. Xüsusən də neftin ucuzlaşması son iki ildə dövlət gəlirlərinin azaldılmasına gətirib çıxartdı. Ondan sonrakı dövrdə də hökumət yolun məhz həmin məmurlarla davam edir. Kimlər ki, zamanında korrupsiya ilə məşğul olublar və büdcə vəsaitləri ilə manevr ediblər. İndi həmin prosesə nəzarət etmək çətindir. Digər tərəfdən, dövlət gəlirlərinin azalması büdcə vəsaitlərinin daha səmərəli və qənaətlə istifadə edilməsini tələb edir. Bu baxımdan, Hesablama Palatasının səlahiyyətlərinin artırılması və bu qurumun öz funksiyasını həyata keçirməsi üçün siyasi iradənin ortaya qoyulması çox əhəmiyyətli məsələdir".

**Rəşad Həsənovun sözlərinə hörə, bu qurumun müstəqilliyi məsələsi də önəmlidir:** "Kənardan təsir imkanları məhdudlaşdırılmalıdır. Hesablama Palatasının müstəqilliyi ilə bağlı konstitusiyada dəyişikliyə ehtiyac var. Beynəlxalq təcrübə göstərir ki, Palatanın rəhbərliyi, onun heyətinin seçilməsi, onların təhlükəsizliyinin təmin edilməsi mütləq şəkildə konstitusiyada əksini tapmalıdır. Digər bir məsəl də odur ki, Palatanın açıqladığı faktların sonrakı dövrdə izlənməsi ilə bağlı, araşdırılması ilə bağlı problem var. Hansı dövlət qurumunda yeyinti faktı ortaya çıxarıbsa, bunun nəticəsi olmur. Heç bir tədbir həyata keçirilmir. Cəmiyyətə də məlumat verilməlidir ki, həmin qurumlarla bağlı hansı tədbir görüldü, hansı cəza mexanizmi tətbiq olundu. Hesablama Palatasının aşkarladığı faktları hüquq-mühafizə orqanlarına, Korrupsiyaya qarşı Mübarizə İdarəsinə, prezidentə göndərmək hüququ var və göndərir. Lakin bunların sonrakı nəticəsi açıqlanmır. Qanunvericilik baxımından da Hesablama Palatasının sonrakı prosesləri izləmə səlahiyyəti məhduddur".

❑ **Nərgiz LİFTİYEVA**

# Dollar təlaşda, manat müəmmada...

## Mərkəzi Bankın dolları ucuzlaşdırmasının fəsadları ola bilər



**Mərkəzi Bank bir həftədir ki, dolları ucuzlaşdırır. Keçirilən hərraclarda dollar manat qarşısında dəyər itirməkdədir. Əksər ekspertlər bildirirlər ki, bunun iqtisadi əsası yoxdur. Həmçinin bankların dollar alış-satışından da narahatlıq ifadə olunur.**

**Milli Məclisin deputatı Vahid Əhmədov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, manatın bahalaşması qısamüddətlidir: "O fikirlərlə mən də razıyam ki, manatın dəyərini tapması üçün, dollar qarşısında möhkəmlənməsi üçün bir real əsaslar olmalıdır. Real əsaslar tələb-təklifdir, idxal-ixrac əməliyyatlarıdır, neftin qiymətidir, bunlar olmalıdır. Əgər bizim milli valyutamız möhkəmlənirsə, bu, müsbət haldır. Amma bunun sabahı nə olacaq? Bu möhkəmlik davam edəcəkmi? Hesab edirəm ki, bu, davamlı olmayacaq. Mərkəzi Bankın apardığı siyasət o idi ki, son vaxtlar manat dollar qarşısında ucuzlaşırdı. Müəyyən qədər yumşaq devalvasiya gedirdi. Biz yumşaq devalvasiyanın tərəfdarı idik ki, manat gəlib tələb-təklifə uyğun olaraq, maliyyə bazarında öz dəyərini tapacaq. Amma birdən-birə vəziyyət dəyişdi. Neft Fondundan Mərkəzi Banka müəyyən qədər vəsait verdilər. O vəsaitdən yəqin ki, Mərkəzi Bank istifadə edir. Çalışırlar ki, müəyyən qədər manatı dövriyyəyə buraxmaqla, dolları müəyyən qədər yığışdırsınlar. Dollar banklara təhvil verilsin və sair. Amma aldığım məlumata görə, artıq müəyyən qədər manat qıtlığı yaranıb. Yəni maliyyə bazarına faktiki olaraq dollar buraxan Neft Fondudur. Mərkəzi Bank da faktiki olaraq manatı idarə edən bir orqan olduğu üçün bazarda bu iki orqan fəaliyyət göstərir. Ona görə hesab edirəm ki, manatın bahalaşması müvəqqəti xarakter daşıyır. Bir müddət sonra manatın ucuzlaşma prosesi davam edəcək. Çünki biz hələlik manatın bazar dəyərini gəlib almamışıq. Tələb-təklifi uyğunlaşdırmamışıq. Son vaxtlar real sektorun inkişafı ilə əlaqədar müəyyən addımlar atılır. Strateji yol xəritəsi ilə əlaqədar ciddi islahatlara start verilib. Amma hələlik bunun bəhrəsini bu yaxınlarda görmürük. Bunun üçün müəyyən müddət vaxt lazımdır. Ona görə hesab edirəm ki, müəyyən müddət sonra yenə də manatın düşmə prosesi davam edə bilər".

**Ekspert Vüqar Bayramov isə qeyd edib ki, kommersiya bankları milli valyutanın möhkəmlənməsi fonunda dolların alış və satış kursları arasında kəskin fərq müəyyənləşdiriblər:** "Bir sıra banklarda dollar 1,68 kursu ilə alınır 1,85 məzənnəsi ilə satılır. Bu isə o deməkdir ki, bank vətəndaşdan 100 dolları 168 manata alır və elə həmin 100 dolları digər vətəndaşımıza 185 manata satır. Nəticədə, sadə əməliyyatdan hər 100 dollarda bank 17 manat və hər 1000 dollarda isə 170 manat qazanır. Əgər bank 1000 dolları 1680 manata alıb 1850 manata satırsa, bu da süni gəlir hesab edilə bilər. Çünki xərc ilə satış qiyməti arasında kəskin fərq var. Mərkəzi Bank marjanı ləğv etdikdən sonra banklar kursu müəyyənləşdirməkdə sərbəstdirlər. Amma bank sektorunda rəqabətin zəif olduğunu və eləcə də Mərkəzi Bankın müdaxiləsini nəzərə alaraq daha məqsədəuyğun olardı ki, xarici valyutaların alış və satış kursları arasında marja müəyyənləşdirilsin. Təbii ki, söhbət Mərkəzi Bankın rəsmi məzənnəsi ilə bağlılıqdan getmir. Valyutanın alış və satış kursları arasında 4 faizlik marja müəyyənləşdirilə bilər. Bu zaman 1,68 kursu ilə dolları alanlar onu təxminən 1,75 kursu ilə satacaqlar. Bu halda isə nə bank hər 1000 dollarda 170 manat qazanacaq, nə də vətəndaş bu qədər itirəcək. Bank üçün fərq hər 1000 dollarda 70 manat olacaq ki, bu da kifayət qədər normal gəlir hesab edilə bilər. Əslində uzun müddət bankların dollar satışından əldə etdiyi fərq 4 faizdən də az idi. Buna görə də belə marjanın müəyyənləşdirilməsi "qara bazar"ı stimullaşdırmayacaq. Çünki banklar aldığı valyutanı satan zaman normal faizli gəlir əldə edəcəklər. Əksinə, valyuta məzənnələrinin müəyyənləşdirilməsində banklar arasında rəqabət yaradacaq. Bu, mövcud məzənnə siyasətinin prinsiplərinə də zidd hesab edilməməlidir. Çünki sektorda rəqabətin formalaşması və istehlakçıların hüquqlarının qorunması üçün Mərkəzi Bank prosesə müdaxilə edə bilir. Eyni zamanda bu marja həmçinin valyuta satışına bankların spekulyativ müdaxilələrinin də qarşısını alacaq. Buna görə də bankların alış-satış məzənnələri arasında asılılığın yaradılması məqsədəuyğundur".

**Ekspert Samir Əliyev dedi ki, dollar süni sürətdə ucuzlaşdırılır:** "Banklar vəziyyətdən sui-istifadə edərək alış qiymətini kəskin aşağı salıblar. Rəsmi məzənnə 1 dollar üçün 1,82 manat olduğu halda alış qiyməti 10 faiz ucuz- 1,65 manata endirilib. Satış isə ən çoxu 4 faiz bahadır. Bankların satdığı dolların alışı ilə satış arasındakı fərqi 3 faizdən 15 faizə qədər dəyişir. Yəni ən az qazanan bank 3 faiz, ən çox qazanan bank isə 15 faiz qazanır. Banklar gündəlik aşağı qiymətə aldığı 7-8 milyon dolları baha qiymətə satdıqda təxminən 500-700 min dollar arası qazanc əldə edirlər. Banklar da aldıqlarından əlavə 1-2 milyon dollar satırlar və qazanclarını daha da artırırlar. Göründüyü kimi, banklar aktiv spekulyasiyaya girişiblər. Cəmiyyətdə süni surətdə yaradılmış panika makroiqtisadi sabitlik üçün heç də yaxşı gələcək vəd etmir".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 30 (6644) 10 fevral 2017

**ABŞ Dövlət Departamenti, Avropa Parlamenti, AŞPA kimi nüfuzlu qurumlar Azərbaycanla bağlı bir neçə il öncələrə qədər tez-tez dinləmələr keçirirdi. Həmin dinləmələrə hakimiyyət təmsilçisi ilə yanaşı müxalifət partiyaları da dəvət edilirdilər. Son zamanlar bu cür dinləmələrin intensivliyində ciddi azalma müşahidə olunur.**

# Müxalifət xaricdə Azərbaycanla bağlı dinləmələrə dəvət edilmir - səbəb

## Ekspert: "Qərb hakimiyyətlə münasibətləri tam korlamamaq üçün müxalifətlə geniş əməkdaşlığı müvəqqəti dayandırıb"

Eyni zamanda hərdən keçirilən dinləmələrə müxalifət dəvət edilmir. Bəs səbəb nədir? Dinləmələr keçirənlərlə hakimiyyət arasında anlaşma olub, yoxsa müxalifət zəiflədiyindən və müxalifətə inanmadıqlarından onun iştirakına ehtiyac duyulmur?

**REAL Vətəndaş Hərəkatının rəhbərlərindən olan Natiq Cəfərli** bildirdi ki, səbəb Qərb institutları ilə, əsasən də Avropa Birliyi ilə Azərbaycan arasında danışıqlardır. Azərbaycanla Avropa Birliyi arasında bir saziş hazırlanır. Bu sazişdə müxtəlif istiqamətlər üzrə əməkdaşlıq perspektivləri öz əksini tapacaq: "Bu danışıqların getməsi dinləmələrin sayının azalmasına gətirib çıxarıb. Dinləmələr insan haqları və ya söz azadlığı ilə bağlı olanda REAL kimi siyasi qurumlar adətən orada iştirak etmirlər. Həmin dinləmələrə hüquq müdafiəçiləri, media təmsilçiləri qatılırlar. REAL-ı müxtəlif dinləmələrə dəvət edirlər. Biz o dinləmələrdə iştirak edirik ki, oradakı müzakirələr ölkəmizdə demokratiyaya təkan verə bilər. Azərbaycanın dövlət maraqlarına zədə vura biləcək hər hansı dinləmələrə isə qatılmırıq. Biz dövlətə qarşı olan dinləmələrin əleyhinə olmuşuq və dövlətə qarşı sanksiyaların effekt verməyəcəyini düşünürük və bu mövqeyimizi də həmişə ortaya qoymuşuq".



**AMİP-in beynəlxalq əlaqələr katibi Elşən Mustafayev isə dedi ki, uzun müddətdir Avropa Birliyində, AŞPA-da, ABŞ-da, digər nüfuzlu qurumlarda Azərbaycan müxalifətinin təmsilçilərinin iştirakı ilə geniş dinləmələr keçirilmədiyi həqiqətdir. Bunu hakimiyyətlə anlaşma, müxalifətin zəifliyi və ya ona olan inamsızlıqdan irəli gələn hal hesab etmək yanlış olardı:** "Siyasi müxalifətlə olan belə təmasların xronologiyasına baxsaq görərik ki, həmin vaxtlar müxalifətlə bərabər paralel olaraq eyni səviyyədə hakimiyyətlə də mütəmadi ünsiyyət olub. O vaxtlar hakimiyyət nümayəndələri ilə də müxtəlif səviyyəli görüşlər keçirilirdi. Hazırda isə Azərbaycan iqtidarı ilə də əvvəlki təmaslar yoxdur. Bir çox hallarda müxtəlif səbəblərlə Azərbaycan iqtidarının özü bundan imtina edib. Bir neçə il öncə Avropa Parlamenti ilə münasibətlərin kəsildiyi rəsmən elan olundu, Şərq Tərəfdaşlığı çərçivəsində əməkdaşlıqdan imtina olundu və s. Bunların hamısı beynəlxalq institutların siyasi partiyalarla əməkdaşlıq imkanlarına yenidən baxmasına gətirib çıxardı. Belə başa düşürəm ki, onlar hakimiyyətlə münasibətlərdə körpüləri birdəfəlik yandırmamaq üçün siyasi müxalifətlə müəyyən əlaqələri saxlamaq şərti ilə geniş əməkdaşlığı müvəqqəti dayandırıblar. Bunu bir çox Avropa siyasətçiləri bizimlə görüşlərdə də etiraf ediblər. Əvəzində QHT-lərlə, araşdırmaçılarla, jurnalistlərlə əməkdaşlıq etməklə bu boşluğu doldurmağa çalışırlar. Fikir verirsinizsə burada da əsas əməkdaşlıq sərhədləri insan haqları, siyasi məhbuslar problemi, korrupsiya, rüşvət və s bu səpkili problemlərlə çərçivəyə alınır. Hansı ki, bu istiqamətdə olan araşdırmaları nəinki Azərbaycanda, bütün dünyada QHT-lər, jurnalistlər həyata keçirir. Amma beynəlxalq təşkilatların siyasi partiyalarla əməkdaşlığının bu halda qalması iqtidarlı-müxalifətli hamıya ziyandır. Beynəlxalq aləmdən təcrid olmaq heç bir halda yaxşı nəticələrə gətirib çıxartmayıb. Son vaxtlar Azərbaycan hakimiyyətinin Avropa Birliyi ilə bağlı verdiyi bəzi bəyanatlar isə bu istiqamətdə buzların əriyəcəyi ehtimalını artırır".

❑ **Etibar SEYİDAĞA**

# Lukaşenko Putindən niyə döndü, "Batka" hədəfə gələ bilərmi?

## Elxan Şahinoğlu: "Kreml Belarusa qarşı bütün pislikləri edib"

**Son illər Belarus prezidenti Aleksandr Lukaşenkonun Rusiyadan uzaqlaşdığının şahidi oluruq. Bunu onun qərbmeylli siyasətindən sezmək çətin deyil. Xüsusilə blogger Aleksandr Lapşinin Moskvanın iradəsi əleyhinə Azərbaycana təhvil verilməsi Belarus rəhbərinin Kremlin təsir dairəsindən uzaqlaşdığını göstərir.**



Ekspertlər bundan sonra Lukaşenkonun Rusiyanın hədəfinə çevriləcəyini ehtimal edirlər. Lukaşenkonun qısa müddətdə Rusiyadan üz çevirməsi ilə bağlı isə ən müxtəlif fikirlər var. Əsas fikirlərdən biri, Belarus rəhbərinin sanksiyalar altında qalan, nüfuzunu getdikcə itirən Rusiyaya yaxın olmaqla öz ölkəsinin gələcəyini təhlükə altında qoyacağını indidən dərk etməsi ilə bağlıdır.

**Politoloq Elxan Şahinoğlu A.Lukaşenkonun Kremldən yanıqlı olduğunu düşünür:** "Lukaşenko onsuz da Rusiya hakimiyyətindən yanıqlı idi. Guya Rusiya Belarusun müttəfiqi sayılır, ancaq reallıqda Moskva Minskə yuxarıdan aşağı baxır. Hər şey ondan başladı ki, Rusiya 2008-ci ildə Gürcüstanı parçalayanda Kreml Lukaşenkodan Abxaziya və Cənubi Osetiyanın "müstəqilliklərini" tanımağı tələb etdi. Lukaşenko bu tələbi rədd etdi. Üstündən 8 il keçdikdən sonra Rusiya Ukraynanı parçaladı, Krımı ilhaq etdi. Bu dəfə də Krımın "müstəqilliyini" tanımağı tələb etdilər Lukaşenkodan. Belarus prezidenti yenə Kremlin təzyiqləri qarşısında baş əymədi. Lukaşenko, ümumiyyətlə, Ukraynanın parçalanması əleyhinə çıxdı və Moskvanın "Krım əzəli rus torpağıdır" sözlərini bu tezislə alt-üst etdi: **"Əgər Krım əzəli rus torpağıdırsa, onda Rusiyanın yarısı monqol-tatarlara məxsus olmalıdır".** Moskva Lukaşenkonun bu ritorikasından narazıdır. Ona görə də Moskva müxtəlif yollarla Lukaşenkonu cəzalandırmağa qərar verdi. Rusiya sərhədində Belarus mallarını qəbul etmir, yüksək vergilər tətbiq edir, halbuki bu iki dövlət Gömrük və Avrasiya İttifaqı Birliyinin üzvləridir. Daha sonra Lukaşenko Rusiyanın Belarusda hərbi baza yaratmaq istəyini rədd etdi. Belarusun 80 ölkə ilə viza rejimini ortadan qaldırması Kremli daha çox əndişələndirdi və Belarusla sərhədə tikanlı məftillər çəkməyə qərar verdi. Lukaşenko anlayır ki, Rusiyaya müttəfiq yox, vassal lazımdır. Lukaşenko isə Ermənistan prezidentindən fərqli olaraq ölkəsini Rusiyanın vassalı halına gətirmək istəmir. Ona görə də o, Rusiyadan döndü və müstəqil siyasətə üstünlük verir".

**Politoloq Lapşinin ekstradisiyasının Belarus üçün nəticələrindən də söz açdı:** "Lapşini Azərbaycana təhvil verdiyinə görə Kreml Minskə heç nə edə bilməz. Onsuz da Kreml Belarusa qarşı bütün pislikləri edib. Əksinə, bloggeri Azərbaycana ekstradisiya etməklə Lukaşenko Moskvanın təzyiqlərinə baş əyməyəcəyini bir daha nümayiş etdirdi. Rusiyanın sırf Lapşin olayına görə Lukaşenkonu cəzalandıracağını düşünmürəm. Bir müddət sonra Rusiyanın özü üçün Lapşin olayı arxa plana keçəcək. Rusiyada törətdikləri cinayətlərə görə o qədər azərbaycanlı vətəndaş həbsxanada yatır ki, heç kim buna görə Rusiyaya etiraz etmir. Lapşin də sərhədlərimizi qeyri-qanuni keçməklə qanunlarımızı dəfələrlə pozub. Rusiya uzaqbaşı Lapşinin məhkəməsinə vəkil göndərə bilər, vəssalam. Rusiyanın hazırda Lapşinlə bağlı nə iradı varsa, Minskə yox, Bakıya etirazını bildirməlidir. Ancaq etiraz mərhələsi artıq geridə qalıb. Rusiya Lapşinin məhkəməsinə və veriləcək qərara hazırlaşmalıdır. Gələcəkdə isə Rusiya öz vətəndaşını Azərbaycan həbsxanasından vaxtında əvvəl çıxarmaq istəyəcəksə, zəhmət çəkib vassalı Ermənistan hakimiyyətinə təsir edib, Dağlıq Qarabağdakı iki girovumuzun azad olunmasını təmin etməlidir. Lapşini girovlarımızla dəyişmək mümkündür".

**E.Şahinoğlu Lapşinin ekstradisiyasının Rusiyanın imicinə ciddi zərbə vurduğunu da söylədi:** "Lukaşenkonun Lapşini ekstradisiya etməsi Rusiyanın imicinə zərbədir. Belarus prezidenti Kremlin istəyini yerə saldı, düz də etdi. Rusiya ikili standartlar tətbiq edir. Dağlıq Qarabağda girov saxlanılan iki azərbaycanlıdan biri Rusiya vətəndaşıdır. Bu müddətdə Moskva vətəndaşının azad olunması üçün heç bir addım atmayıb. Ancaq Azərbaycanın qanunlarını kobud sürətdə pozan Lapşin üçün əldən-ayaqdan gedir. Lukaşenko da Lapşini Azərbaycana ekstradisiya etməklə Rusiyanın ikili standartlarına ciddi zərbə vurdu. Məncə, biz heç zaman dostumuz Lukaşenkonun bu addımını unutmayacağıq. Lukaşenkoya ağır gündə azərbaycanlı həmkarı İlham Əliyev dəstək verdi. Rusiya Lukaşenkonu sıxanda Belarus prezidentinə qısa müddətə 250 milyon dollar lazım idi. Lukaşenko Əliyevə müraciət etdi və Azərbaycan prezidenti onu darda qoymadı. Bir gün Azərbaycanın da Lukaşenkonun dəstəyinə ehtiyacı oldu və o sağ olsun, dəstəyini bizdən əsirgəmədi. Lukaşenkonu devirmək ermənilərin əlində deyil. Ermənilər haray-həşir sala, Belarus səfirliyi qarşısında qışqıra bilərlər. Vəssalam. Əslində rəsmi İrəvan Lapşin olayı ilə bağlı bir daha onu anladı ki, Belarus və Qazaxıstan Avrasiya İqtisadi Birliyi və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində sözdə Ermənistanın müttəfiqləri sayılsalar da, reallıqda Minsk və Astana Azərbaycanın müttəfiqləridir".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 30 (6644) 10 fevral 2017



# Atma şıllaq, yemə şallaq

Xalid KAZIMLI

**Bir neçə ölkənin vətəndaşı olan bloqçu Aleksandr Lapşinin Belarusda həbs və yüngülcə mühakimə olunaraq Azərbaycana ekstradisiya olunması xəbərinə ilkin reaksiya verən bir həmkarımızın rəyi çox mənfi idi: "Nə ehtiyac var? Adam jurnalistdir, gördüyünü, düşüncələrini yazır. Söz azadlığını boğmaq olmaz".**

Ona Lapşinin Azərbaycana və Ermənistana, eləcə də Dağlıq Qarabağa səfərinin ardından öz bloqunda yazdığı materialın kopyasını göstədilər, oxudu və yekun reaksiyası belə oldu: "Vay, yaramaz. Buna bax ey. Beləsi tutub..."

Həmkarımızın Lapşin barədə hipotetik hökmü elə oldu ki, bloqçu özü könüllü şəkildə həbsi və ekstradisiya olunmağı üstün tutardı. Çünki yarım saat əvvəl Lapşini müdafiə edən söz adamının son fikri çox amansız idi. O, elə bilirmiş ki, bloqçu Dağlıq Qarabağa sıradan bir səfər edib və ölkəmizdəki siyasi rejimin əleyhinə nələrsə yazıb.

Ancaq Lapşinin yazdıqları başqa cür idi, o, ölkəni ələ salır, aşağılayır, alayçı bir tövrdə 150 avro qarşılığında Azərbaycanın qanunlarını bir daha tapdalaya biləcəyini vurğulayır, ölkəmizin "DQR"-ə səfər edənlərlə bağlı tərtib etdiyi qara siyahıya rişxənd edir, o siyahıda 16-cı yerdə yox, 1-ci yerdə olmağa "çalışdığı"nı yazır.

Budur, Lapşin öz arzusuna çatıb, artıq həmin "qara siyahı"nın başındadır və başqa bir dövlətin sərhədini pozduğu üçün yaxalanıb ekstradisiya edilən ilk adam kimi qeydə alınıb, üstəlik, həbsi ilə bağlı ən azı 5 dövlətin (Rusiya, Belorus, Ermənistan, İsrail və Azərbaycan), eləcə də xeyli beynəlxalq təşkilatın qarışdığı qalmaqal yaranıb.

İndi bloqçu Lapşin şöhrətinin zirvəsindədir. Hamı ondan danışır, yazır.

Bir müddət əvvəl o, Azərbaycana, onun sərhədinə, qanunlarına lağ edir, ələ salırdısa və bu ironiyası ilə əsasən ermənilərdə gülüş dalğası yaradırdısa, indi arvadı, anası gözyaşlarına boğulub, gümanları gələn hər kəsə yalvarırlar.

Lapşinin gülüş doğuran yazılarının yerini yalvarış dolu xahiş məktubları alıb.

Söz yox, bu adamı uzun müddət həbsdə saxlamayacaqlar, bir müddətdən sonra, loru dildə desək, zıl yemişə xətm edib azad buraxacaqlar. Amma bu hadisə ibrətamiz olacaq, başqaları, Lapşin kimi hərəkətlər etməyə şirniklənənlər öz dərslərini alacaqlar.

Həmişə olduğu kimi, yenə də "demokratiya prinsiplərini prioritet sayan", hər şeyə müxaliflik edən "daimi dissidentlər" var və onlar ölkəmizə həqarət edən bu şəxsin tutulub gətirilməsinə, yumşaq desək, dodaq büzürlər.

Yaxşı, nə olsun? Gələn, gedən bu ölkəyə döşəsin? Hər zaman bizi aşağılasınlar, ələ salsınlar? Çoxmu xoş durumdur bu?

Lapşin həm də İsrail vətəndaşıdır, baxaq görək, onun vətənlərindən biri olan İsrail bu sayaq durumlarda nə edərdi, beynəlxalq səviyyədə ələ salınmasına, təhqir olunmasına dözərdimi, qanunlarının pozulması faktı ilə barışardımı, bununla fəxr edən adamı cəzasız buraxardımı?

Nəinki İsrail, özünə hörmət qoyan və qoyulmasını istəyən heç bir dövlət bununla razılaşmaz. Hətta Ermənistan kimi ultra-millətçi dövlətlər belə adamı düşmən elan edər, qətlinə fərman verər.

Xatırlayırsınızsa, 2012-ci ilin mayında da bənzər bir hadisə olmuşdu. O zaman İran dövləti avropalıların Bakıya axışmasında narahat olmuş, Azərbaycana düşmən kəsilmişdi və siyasətçilərdən tutmuş məscid axundlarına qədər xeyli nüfuzlu şəxs hər çıxışlarında ölkəmizə lənət yağdırırdı. Bu arada Norveçdən gələn və əslən iranlı olan bir jurnalist yarışmanın keçiriləcəyi "Kristal holl"un fonunda milli bayrağımıza şıllaq atmış, bizi ələ salmağa cəhd göstərmişdi. Ancaq bu şıltaqlığı ona bağışlamadılar. Şıllaqatan jurnalist ölkəni tərk edərkən aeroportda onunla elə davrandılar, onun özünü elə ələ salıb təhqir etdilər ki, nəinki bayrağa şıllaq atmağına, hətta ölkəyə gəlməyinə də peşman oldu.

Ola bilər, o hadisədə bəzi qayda-qanunlar pozulmuşdu, insan haqları ilə ziddiyyət təşkil edən hərəkətlərə yol verilmişdi. Bu, əlbəttə, düzgün deyil. Amma hamı bilməlidir ki, bir ölkənin paytaxtının mərkəzində dünyaya göstərə-göstərə dövlətin müqəddəs atributuna qarşı təhqiramiz hərəkət etdikdən sonra öz şərəf və ləyaqətini toxunulmaz saxlayaraq aradan çıxmaq mümkün deyil.

Lapşinin başına gələnlər öz məsuliyyətsizliyinin, qanacaqsızlığının və yeniyetmələr kimi "hər sözə bir söz qoşmaq", lağlağı etmək xobbisinin məhsuludur.

# Baba nəvəsini doğrayıb maşına yığır, ər hamilə arvadını öldürür...

## Azərbaycanda tükürpədici qətllərin sayı gündən-günə artır - səbəb təkcə maddiyyat deyil



**"Nəvəmin evə narkoman dostlarını gətirdiyini öyrəndim. Əsəbləşdim, arvadım da evdə idi. Onu bazara göndərdim. Uşaqla mübahisə etdim. Şəhid olan oğlumun gorunu və məni söydü. Üstümə gələndə bir yumruq vurdum. Yerə yıxıldı. Tez əllərini bağladım. Ağzına parça salıb iplə bağladım ki, qışqırmasın. Mətbəxdən bıçaq gətirib cinsiyyət orqanını kəsdim. Sonra iplə boğub, öldüyünə əmin oldum. Yorğana büküb, yatağın altına qoydum..."**

Bu sitat Ağdam rayon sakini, 71 yaşlı Rakif Bayramova məxsusdur. 16 yaşlı nəvəsi Tural Bayramovu yaşadığı evdə boğaraq amansızlıqla qətlə yetirdiyini etiraf edən babaya. Dindirmə zamanı R.Bayramov əməli tək törətdiyini və qətlə söyüşün səbəb olduğunu deyib. Sosial şəbəkələrdə hadisənin namus üstündə, daha doğrusu, Tural Bayramovin doğma bacısına sataşdığı üçün babası tərəfindən qətlə yetirildiyi barədə məlumat yayılıb.

Amma bu, son günlər kriminal xronikada yer alan birinci və sonuncu amansız qətl xəbəri deyil. Artıq məhkəmə zallarında qorxu filmləri ilə rəqabətə girəcək səviyyədə qətllər araşdırılır; borcunu qaytarmayan dostunun boğazını kəsən kim, həyat yoldaşının əlində mesaj tutduğu üçün ona 15 bıçaq zərbəsi endirən kim. Daha çox ərlərin öz həyat yoldaşlarına qarşı amansız qətlləri sürətlə artır...

2016-cı ildə 422 məişət zorakılığı hadisəsi baş verib. Dəhşətli cinayətlərdən biri Qəbələ rayonunun Kürd kəndində baş verib: 1985-ci il təvəllüdlü Xəyal Verdiyev ailə münaqişəsi zəminində 25 yaşlı həyat yoldaşı Səbinə Verdiyevanı qətlə yetirib. Üç uşaq anası olan qadın qətlə yetirilərkən dördüncü uşağına hamilə olub. Təsəvvür edin, 3 uşağının anasını, üstəgəl, bətnində bir körpəni daşıyan qadını məişət zəminində - sənin anan belə dedi, niyə məndən icazəsiz atangilə getmisən tipli motivlərlə qətlə yetirirsən...

Bunca aqressiyanın səbəbi nədir? Təkcə maddi problemlərmi? Çünki ağla gələn ilk versiya budur. Amansızlıqla törədilən cinayətlərin sayının artmasının əsas səbəbi cəmiyyətdə aqressivliyin artmasıdır. Aqressivliyin əsas səbəblərinə məişət şəraitinin ağır olmasını, iqtisadi çətinlikləri, dünyada gedən prosesləri, iqlim dəyişkənliyini və s. aid etmək olar.

**Baş psixiatr Gəray Gəraybəyli isə mediaya açıqlamasında bildirib ki, insanların psixi sağlamlığını pozan səbəblər sırasında ekologiyadan tutmuş, səbirsizlik, vaxt məhdudiyyəti, stresslər və digər faktorlar sadalaya bilərik. Onun sözlərinə görə, Yer kürəsində insanların sayı durmadan artır, bu da istər makro, istərsə də mikro problemlər yaradır:** "Müharibə, münaqişə, təbii fəlakətlər, şəhərlərdə əhalinin artması, bunun yaratdığı gərginliklər də psixioloji problemləri yaradan səbəblərdəndir. Əsəb yorğunluğunun əsas səbəbi istirahətsiz iş prosesidir".

Normal psixika üçün vacib şərtlərdən biri yuxudur. Amma şəhər mühitində normal yuxu yatmaq mümkün deyil. Çünki gecə küçədə olan səs-küy, gündüz saatlarından fərqlənmir. Nəticədə insan 8 saat yatsa da, dincəlmir. Bu stress də zamanla bədəndə toplanır və psixi problemlərə nəticələnir. Münaqişələr, stresslər, daim tələsmək, küy də insan beynini yorur.

### Yediyimiz qidalar - bizi əsəbə və aqressiyaya sürükləyir

Daha bir iddia isə insanlarımızı hər gün dükan-bazardan aldıqları GMO (Genetik Modifikasiya Olunmuş) məhsullarının aqressivləşdirməsidir. Belə ki, orqanizmə ziyanlı olması dəfələrlə sübut edilmiş bu məhsulların psixikanı da sıradan çıxardığı sübut edilib.

Azərbaycanda istehlak etdiyimiz məhsulların müəyyən faizi heyvan və bitki tərkibli GMO-dur. İnsan orqanizmi üçün zərərli olan məhsullar kimyəvi maddələrin tətbiqi nəticəsində istehsal edilən məhsullardır. Nəticədə məhsullarda əmələ gələn toksik maddələrin insan beyninə mənfi təsiri elm tərəfindən sübuta yetirilib...

### Əvvəl "əxlaqsız" damğası vurub öldürürdülər, indi damğaya da gərək yoxdur

Amma gəlin o dəhşətli rəqəmlərə nəzər salaq. Birləşmiş Millətlər Təşkilatının Demoqrafik Fondunun məlumatına görə, hər il dünyada 5 mindən çox qadın namus məsələsinə görə öldürülür. Qadın cinayət qurbanlarının 70 faizi ərləri, ya da sevgililəri tərəfindən öldürülür. Dünyada hər 3 qadından 1-i həyatının bir dönəmində zorakılığa məruz qalır. Hər 5 qadından 1-i isə həyatının hansısa mərhələsində təcavüz və yaxud təcavüz cəhdinin qurbanı olur. ABŞ-da hər 90 saniyədə 1 qadın təcavüzə uğrayır, İraqda 2003-cü ilin aprelindən bu yana ən azı 400 qadın təcavüzə uğrayıb. Bu cinayətlər daha çox Banqladeş, Braziliya, Ekvator, Misir, Hindistan, İsrail, İtaliya, İordaniya, Mərakeş, Pakistan, Türkiyə, Uqanda və İngiltərədə baş verir.

ABŞ-da qadınlar daha çox silahla öldürülür, Hindistanda amansız yola əl atırlar. Hindlilər qadınları döyür, sonra da yandırırlar. Polislərə isə "mətbəx qəzası" deyib, canlarını qurtarırlar.

Türkiyədə mürtəce tayfa adət-ənənələri və namus məsələsi qadınların həyatı üçün real təhlükədir.

Əvvəllər namus cinayətlərinin qurbanları əxlaqsızlıq edən və təcavüzə uğramış qızlar olurdusa, bu gün ailədaxili problemlər nəticəsində öldürülən qadınların üzərinə ləkə kimi "əxlaqsız" damğası vurulur və cinayətkar özünü namuslu insan kimi təqdim edir.

Sosial araşdırmalar isə sübut edib ki, öldürülən zərif cinsin nümayəndələrinin bir hissəsi iftiraya məruz qalan qadınlar, digər bir hissəsi isə ailə adət-ənənələrinə üz çevirən qadınlardı. Öldürülən 10 qadından 2-nin əxlaqsız olma ehtimalı var. Amma bunu da heç kəs sübuta yetirə bilməz.

### Bu qəddarlıq əvvəl də vardı...amma onda media yox idi...

Yaxşı, bəs bu qəddar qətllərin kökündə nə dayanır? Sovet dönəmində də bu cür qətllərin olduğunu düşünən sosioloqların fikrincə, həmin vaxt media, sosial media bu qədər aktiv olmadığı üçün hər şey "bir daş altda, bir daş üstdə" prinsipi ilə gizli saxlanırdı. Amma indi baş verənlər dərhal mediaya, ordan da cəmiyyətin bütün təbəqələrinə yayılır. Nəticədə isə ajiotaj yaranır.

Amma belə düşünənlərlə yanaşı, məsələnin psixoloji qatlarına enənlər də az deyil. Belə ki, heç də hər şey kasıblığın yaratdığı aqressiya ilə bağlı deyil.

Belə ki, cəmiyyətdə özünü göstərən ciddi təbəqələşmə vəziyyəti daha da ağırlaşdırır. İnsanların dolanmaq üçün bir neçə mərhələdən keçməsi və hər dəfə də uğursuzluğa düçar olması məlum mənzərəni daha da faciəvi edir. Həyatda uğur qazana bilməyənlər çox vaxt aqressiyasını daha çox öz yaxınından çıxarır. Ən kiçik səhvini belə bağışlamır və bəzən "sudan səbəblərlə" emosiya partlaması yaşayırlar.

İşsizlik də aqressiyanın, dolayısı ilə belə dəhşətli, amansız qətllərin kökündə həm də işsizlik yaradır. Sutkada 11-12 saat çalışan adamlarda isə fiziki yorğunluqla yanaşı, mənəvi gərginlik də olur və bu, özünü aqressiya formasında üzə vurur.

### Ziyalılar üçün belə qətl daha xarakterikdir

Dünya üzrə yayılan anlayışlardan biri də cinayətin profilaktikasıdır. Yəni cinayətkarların islah olunacağı hər hansı məkan yoxdur. Son nəticədə isə haçansa cinayət edənlər təkrar cinayət törədirlər.

Amma bir məqama da diqqət edək. Belə qətllər təkcə kriminal xarakterli şəxslər tərəfindən törədilmir. Bir çox hallarda ziyalı, ali təhsilli şəxslərin də belə əməllərə qol qoyması təsdiqini tapıb. Belə ki, bir çox hallarda ziyalılar da hansısa maddi problemlərin qurbanı olurlar. Cəmiyyətdə baş verən proseslər psixoloji halı gücləndirir. Belə ki, fiziki qətldən öncə psixoloji qətl hadisəsi baş verir. Tərəflər bir-birini psixoloji baxımdan qətlə yetirirlər, məhv edirlər. Ali savadlı, ziyalı, bəşəri dəyərlərlə yaşayan insanların qətlə meyl etməsi isə xüsusən anlaşılandır. Psixoloqlar sübut edir ki, bir çox hallarda onlar yüksək hisslərlə yaşayırlar. Belə insanları mənəvi baxımdan aşağılamaq, mənəvi cəhətdən zərbə vurmaq daha asandır və ağır nəticələr verir.

Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 30 (6644) 10 fevral 2017

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Təmas xəttində düşmən təxribatları yenidən çoxalıb. Heç şübhəsiz, bunun bir səbəbi də blogger Aleksandr Lapşinin Azərbaycana ekstradisiyası səbəbindən Ermənistanın və onun rəhbərliyinin pərt və qəzəbli olmasıdır. Nəzərə alsaq ki, işğalçı ölkədə həm də parlament seçkiləri kampaniyasıdır və bu insident ilk növbədə kriminal Sərkisyan rejiminin Qarabağla bağlı təbliğatına ciddi zərbədir, o zaman mənzərə daha da aydın olar.**





# Aprel döyüşləri təkrarlansa... böyük sülhün alternativi böyük müharibədir!

## Ermənilərin təmas zonasında artan təxribatlarının pərdəarxasındakı motivlər; **politoloq:** "Azərbaycan ordusu artıq sübut edib ki..."

Başqa sözlə, ən azından aprelədək düşmən tərəfinin yeni təxribatlarına hazır olmalıyıq. Bu barədə hərbi ekspertlər də xəbərdarlıq etməkdədirlər. Təbii ki, səsvermə gününə daha yaxşı göstəricilərlə gəlməyə çalışan Sərkisyan hakimiyyətindən hər şey gözləmək olar. Fəqət, işğalçı ölkənin bu manevrləri əbəsdir. Çünki artıq onun istənilən provokasiyasına cavab vermək üçün Azərbaycan artıqlaması ilə potensiala, qüdrətli orduya malikdir.

Bunu ötən ilin aprel döyüşləri, ondan sonra təmas xəttində baş verənlər bir daha nümayiş etdirdi. Odur ki, təcavüzkar olsa-olsa, Rusiyaya bel bağlaya bilər. Rusiyanı isə müharibəyə cəlb eləmək elə də asan deyil. Ən azından, Moskvanın yaxşı münasibətdə olduğu Azərbaycan, Türkiyə faktoru var - hansı ölkələrlə ki, Kremlin arasını ermənilər hər vəchlə vurmağa səy edirlər. Rusiya özü də bu münasibətlərin böhrana girməsində maraqlı deyil.

*****

Ötə yandan, ilin ilk ayı - yanvar erməni tərəfi üçün rekord sayda (12) hərbçinin itirilməsi ilə yadda qalıb. Fevral da düşmən üçün faciəvi - canlı itkilərlə başlayıb. Üstəlik, indi Azərbaycanın Ermənistan üzərində növbəti diplomatik qələbələri - AŞ PA-nın qış sessiyasında Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi kimi göstərildiyi daha bir qətnamənin qəbul edilməsi, yəhudi blogger Aleksandr Lapşinin ölkəmizə ekstradisiya edilməsi və s. kimi diplomatik uğursuzluqları qeyd eləmək lazım gəlir.

**"Ermənilər son vaxtlar Azərbaycan ordusunun və diplomatlarının qələbələrini həzm edə bilmirlər. Burada əsas məsələ Çingiz Qurbanovun nəşinin qaytarılması, eyni zamanda ona Milli Qəhrəman adının verilməsi, Aleksandr Lapşinin Bakıya gətirilməsi və Azərbaycanın digər uğurlarını həzm edə bilmirlər. Hətta onların öz saytlarında danışan politoloqlar qeyd edirlər ki, Ermənistan Dağlıq Qarabağ münaqişəsini uduzub. Məhz buna görə də, bir daha ermənilərin özlərinin varlığını göstərmək və danışıqlara getməmək üçün əsas məsələ atəşkəsi pozmaqdır".**

**Bu sözləri tanınmış politoloq Arzu Nağıyev ölkə.az-a açıqlamasında bildirib. Onun fikrincə, ermənilər hələ də köhnə peşələrindən əl çəkməyərək cəbhədə təxribat yaratmaqda davam edirlər.** "Xəbər yayıldı ki, Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşməlidirlər. Görüşlərdən öncə ermənilər həmişə təxribatlara əl atırlar. Onlar beynəlxalq səviyyədə də göstərmək istəyirlər ki, Azərbaycan atəşkəsi pozur. Eyni zamanda aprelin ikisinə, məhz aprel döyüşləri gününə parlament seçkiləri təyin ediblər. Ermənilər bir daha bunu bayrama çevirmək istəyirlər ki, apreldə cəbhədə uduzmağımıza baxmayaraq, bu günü bayram edirik və seçkilərdə iştirak edəcəklər", - deyə o qeyd edib.

**Onun sözlərinə görə, bütün bunların hamısı danışıqları pozmaq, Sərkisyan hakimiyyətini uzatmaq və digər məsələlərə hesablanmış addımlardı. Ekspert düşünür ki, hansısa təxribatın qarşısı Azərbaycan ordusu tərəfindən mükəmməl şəkildə alınacaq. Ekspert deyir ki, Azərbaycan ordusu bunu sübut edib və bu dəfə də hərbi uğur təkrarlanacaq:** "ATƏT-in Minsk Qrupunun həmsədrləri regiona səfər etməlidir. Məsələləri konkretləşdirməlidir. Əgər söhbət sülhdən gedirsə, sülhün bərqərar olması istiqamətində müvafiq addımlar atılmalıdır. Düşünürəm ki, bu dəfə aprel döyüşləri təkrarlanarsa, Azərbaycan ordusu daha kəskin mübarizə aparacaq və böyük əraziləri işğaldan azad edəcəklər. Bu gün Azərbaycan ordusu tam şəkildə buna hazırdır və tam döyüş əzmindədir. Eyni zamanda həm diplomatik səviyyədə, həm digər məsələlərdə böyük güclər bizimlə razılaşır. Biz öz ərazimizdə antiterror əməliyyatları keçirməklə ərazi bütövlüyümüzü qoruyuruq və bərpa etməyə çalışırıq. Növbəti döyüşlərdə ötənilkindən də artıq ərazilər alına bilər. Təbii ki, region dövlətləri istəməz ki, bu saat Azərbaycan və Ermənistan arasında böyük müharibə başlasın. Lakin lokal aprel hadisələrinin təkrarlanması istisna deyil".

**Politoloqa görə, aprel döyüşləri təkrarlanarsa, bu dəfə Rusiya Ermənistanı xilas edə bilməyəcək:** "Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvüdür. Onlar hər vəchlə istəyirlər ki, hər addımda Rusiyanı bu məsələlərə qatsınlar. Məhz ona görə də əsasən təmas xəttində deyil, Azərbaycan-Ermənistan sərhədində təxribatlara əl atırlar. Rusiya regionda müharibənin başlamamasını istəyən bir tərəf kimi çıxış edə bilər. Lakin bu dəfə müharibənin dayandırılması və öz ərazilərimizdə antiterror əməliyyatlarının keçirilməsinə mane ola bilməz. Rusiya, sadəcə olaraq, bir tərəfdaş, regional nüfuza sahib olan dövlət kimi müharibənin dayandırılmasını xahiş edə bilər. Yəni bu dəfə cəbhədə müharibə baş verərsə, Ermənistanı Rusiya xilas edə bilməyəcək".

*****

Münaqişə zonasında situasiyanın artıq Ermənistanın xeyrinə olmadığını əslində işğalçı ölkənin rəhbərliyi də yaxşı bilir. Təsadüfi deyil ki, prezident Serj Sərkisyanın hakim partiyanın son toplantısında söylədikləri siyasi müşahidəçilər həm də böyük müharibədən xoflanmaq kimi qiymətləndirmişdilər. Yada salaq ki, Sərkisyan öz təlaşına haqq qazandırmaqdan ötrü "dünyada qorxmayan adam yoxdur" demişdi.

Düşmənin belə bir təlaşı üçün əsas isə ikiqat böyükdür. Çünki Ermənistan yad ölkənin ərazilərini işğal edən təcavüzkar ölkədir və günün birində həmin ərazilərdən vurulub çıxarılacağının, mövcud status-kvonun sonsuzadək davam etməyəcəyinin fərqindədir. İşğalçıların aqibəti heç vaxt yaxşı olmayıb. Hələ ki öz havadarlarına güvənən Ermənistan da istisna olmayacaq.

Bu xüsusda Sərkisyanın müharibə barədə son fikirlərini erməni cəmiyyətinə ünvanlı "işğal altındakı torpaqları gec-tez qaytarmalıyıq" mesajı kimi də qəbul eləmək olar. Əfsus ki, Ermənistan rəhbərliyi bu yöndə real və konstruktiv addım atmaq istəyindən çox uzaq görünür, böyük sülhün yaxınlaşması üçün praktik heç nə eləmir.. Böyük sülhün alternativi isə böyük müharibədir...



Karen Karapetyan

## Erməni baş nazir: "Azərbaycan qarşısında gücsüzük"

**"Ermənistan hökuməti Aleksandr Lapşinlə bağlı olayı qeyri-adi və qeyri-məntiqli hesab edir. Bu üzdən də bu kimi hərəkətləri önləmək üçün yollar tapmaq mümkün görünmür". Musavat.com-un məlumatına görə, bu sözləri Ermənistanın baş naziri Karen Karapetyan yəhudi bloggerin Belarusdan Azərbaycana ekstradisiyasını şərh edərkən deyib.**

Deputat Tevan Poqosyanın "Bundan sonra belə halların qarşısını almaq üçün hansı addımlar atılmalıdır" sualına baş nazir belə cavab verib: "Belə halların qarşısını alacaq addımlardan danışa bilmərəm". Bununla da o, faktiki şəkildə işğalçı ölkənin Azərbaycan qarşısında gücsüzlüyünü etiraf edib. Karapetyan məsələ ilə bağlı hökumətin Xarici İşlər və Müdafiə nazirlikləri ilə müzakirə apardığını da deyib.

# Bakıda kürünün kiloqramı 1500 dollardır

## Satıcılar bildirirlər ki, əgər balıq müştərinin gözü önündə yarılıb kürüsü çıxarılırsa, qiyməti daha baha olur...

**Türkiyə mətbuatının yazdığına görə, son günlər havaların soyuq keçməsi ilə əlaqədar olaraq qardaş ölkədə balığın qiymətində kəskin bahalaşma müşahidə olunur. Bəs Azərbaycanda balıq və kürü neçəyə satılır?**

Paytaxt Bakıda yol kənarlarında və bazarlarda balıq satışına tez-tez rast gəlmək olur. Müşahidə etdik ki, yol kənarında satılan balıqlar əsasən sazan balığıdır. Bunun da səbəbi odur ki, sazan balıqları sudan çıxarıldıqdan sonra daha çox yaşayırlar və onların xarab olma müddəti də digərləri ilə müqayisədə daha uzundur. Öyrəndik ki, hazırda yol kənarlarında satılan çay sazanlarının qiyməti 5-5.5 manatdır. Bundan əlavə, Naxçıvan sazanı da var ki, onun qiyməti digərlərindən bir qədər bahadır. Hazırda Naxçıvan sazanı 7-8 manata satılır.

Bazarlarda isə istənilən növ balığa rast gəlmək mümkündür. Məsələn, "8-ci kilometr bazarı"nda içəri və çöl tərəfdə sıra ilə düzülmüş piştaxtalarda balıqlar satılır. Eyni zamanda bəzi satıcılar iri akvariumlarda, vannalarda diri balıqlar da satırlar.

Bazarın içəri tərəfində piştaxtaların üzərinə səliqəli şəkildə balıqlar düzülsə də, çöl tərəfdəki balıqlar əsasən çirkli vannalarda satılır. Ümumilikdə satıcılar bu balıqları "çay balıqları" adlandırsalar da, konkret olaraq çoxunun haradan tutulması bəlli deyil.

Satıcılardan öyrəndik ki, hazırda bazarda Kür sazanının qiyməti 4-6 manat, kütüm balığı 9-10 manat, ilan balığı 70 qəpik, kilkənin kiloqramı 1 manat 60 qəpik, xanı balığı 4.5 manat, çəki balığı 7-8 manata, xəşəm 12 manata satılır. Nərə balığına gəlincə isə göldə böyüdülən nərənin qiyməti 40 manata, dəniz nərəsinin qiyməti isə 60 manatadır.

Satıcılar bildirdilər ki, son zamanlar balığın qiymətində heç bir artım yoxdur. Lakin müştərilər heç də belə düşünmürlər. Elə balıqların qiyməti ilə maraqlandığımız zamanı söhbət etdiyimiz müştərilər bildirdilər ki, qiymətlərdən razı deyillər.









Bazarda satılan balıqlar əsasən çay və göllərdən tutulanlardır. Satıcıların sözlərinə görə, bu il dəniz balığı demək olar ki, satmayıblar. Çünki Xəzərdə bu il balıq az olub.

Kürülərin qiymətinə gəlincə isə qırmızı kürünün yarım kiloqramı 90-120 manatadır. Nərə balığının kürüsünün bir kiloqramı 1200 manata satılır. Ən bahalı kürü isə ağ balığın kürüsü hesab olunur. Belə ki, bu kürünün qiyməti 1500 dollardır. Satıcılar bildirdilər ki, əgər balıq müştərinin gözü önündə yarılıb, kürüsü çıxarılıb satılırsa, onun qiyməti daha baha olur. Çünki bu kürü təmiz hesab olunur və heç bir qatqısı olmur. Kənardan gətirilən kürüyə isə çox zaman yumurta və digər maddələr vurulur. Ona görə də onların qiymətləri bir qədər aşağı olur. Lakin onu da qeyd edək ki, bazarlarda açıq şəkildə bu cür balığı kürünün satışına rast gəlmək mümkün deyil. Belə ki, söhbət etdiyimiz satıcılar bildirdilər ki, sifariş olanda onlar bu cür kürünü təşkil edə bilirlər. Onu da kiloqramla deyil, qramla satırlar. Bildirdilər ki, kiloqramla qara kürü sifariş verən çox az müştəri olur.

**1991-1992-ci illərdə o dövrdə fəaliyyət göstərən "Azərbalıq" İstehsalat Kommersiya Assosiasiyasının sədri Hafiz Hacıyev "Yeni Müsavat"a bildirdi ki, hazırda Azərbaycanda balığın qiyməti çox bahadır:** "Mənim işlədiyim dövrdə qara kürünün kiloqramı 90-110 dollara idi. Balığın da kilosunu 4.5 dollara satırdıq. Söhbət nərə balığından gedir. Ancaq misal üçün, göl balıqlarını təxminən 2-3 manata mağazalarda açıq şəkildə satdırırdıq. İndi isə qiymətlər çox bahadır. Hazırda dünya bazarında qara kürünün qiyməti 1200-1500 dollaradır. Kürünü bir kənara qoyaq, bu gün Azərbaycanda balığın da qiyməti çox bahadır. Elə bir vəziyyətdir ki, bunu süni şəkildə qaldırırlar. Bu barədə dəfələrlə demişəm və bunları söylədiyimə görə məni qınayanlar da olub ki, niyə belə deyirsən. Azərbaycanda bu gün göl balıqlarının kiloqramı 3 manatdan artıq olmamalıdır. Ancaq bazarda 6-12 manata qədər qiymətdə olan balığa rast gəlmək olur. Bunların hamısı monopoliya ilə bağlı olan məsələlərdir. Nəticədə isə süni şəkildə qiymətlər qalxır. Bizim vaxtımızda belə bir şey yox idi. Mağazalarda açıq şəkildə kürü satılırdı və icazə vermirdik ki, 150-200 qramdan artıq kimsə bunu alsın. Yəni belə bir əmrimiz var idi. Bu gün Azərbaycanın 6 aylıq büdcəsini balıq və kürü satışı ilə təmin etmək olar. Biz bunu deyirik, ancaq bizlə düşmən olurlar. Xalqın öz sərvətləri hələ ki özünə qismət olmur. Belə getsə, heç olmayacaq da".

❑ **Əli RAİS**
**Fotolar müəllifindir**

# Monopolistlər yerli quş əti istehsalçılarını sıxışdırır

## «Bazarlara yerli ad altında xarici məhsul çıxarılır» iddiası nə dərəcədə həqiqətdir?







**Paytaxtda fəaliyyət göstərən market və bazarlarda broyler toyuqlarının qiymətində artım müşahidə olunub. "Yeni Müsavat"ın müxbiri paytaxt bazarlarında müşahidə aparıb. Məlum olub ki, bir müddət öncə 1 kiloqramı 3.70-4 manat arasında dəyişən dondurulmuş broyler toyuqlarının qiyməti indi 4.30-4.50 manat arasında dəyişir. Marketlərdə demək olar ki, xaricdən idxal olunmuş toyuq ətinə və toyuq əti məhsullarına rast gəlmək mümkün deyil. "Siyəzən", "Səma", "Tamlı", "Hicaz", "Fədək" adı ilə satışa çıxarılan toyuq ətlərinin demək olar ki, hamısı yerli istehsaldır.**

Bunun əksinə olaraq, yumurtanın qiyməti ucuzlaşıb, "Dəvəçi", "Giləzi" yumurtalarının 1 ədədi 12 qəpikdir, kənd yumurtası isə 18 qəpiyə satılır.

Qeyd edək ki, ötən il oktyabrın 2-də hökumətin gömrük rüsumlarının artırılması ilə bağlı qərarında Azərbaycana idxal edilən 1 kq ev toyuğu əti üçün 1 dollar, 1000 ədəd toyuq yumurtası üçün 100 dollar idxal rüsumu alınacağı nəzərdə tutulurdu. Hökumət rəsmiləri bunu yerli istehsalı stimullaşdırmaq məqsədilə etdiklərini açıqlayırdılar.

Lakin bəzi ekspertlər bu qərarın əks təsir göstərərək, yerli broyler şirkətlərini bazardan sıxışdırıb çıxardığını bildirirlər.

Sözügedən sahədə çalışan, adının çəkilməsini istəməyən iş adamlarından biri "Yeni Müsavat"a danışarkən bildirib ki, hazırda bazarda yerli məhsul adı altında satılan toyuq ətlərinin bir çoxu xaricdən gətirilir, xüsusən də Ukraynadan. Sadəcə, burada qablaşdırılaraq, üzərinə yerli şirkətlərin yarlığı vurulur. Səbəb isə odur ki, iri monopolistlər bu sahənin əllərindən çıxmasını istəmədiklərindən xaricdən ucuz qiymətə quş ətini idxal edirlər. Bu isə yerli broyler şirkətlərinin bazarda sıxışdırılmasına gətirib çıxarır.

İş adamı onu da qeyd etdi ki, quş ətinin xaricdən idxal edilməsi hökumətə də sərf edir. Çünki yerli istehsalçı qazandığı gəlir müqabilində dövlət büdcəsinə yalnız gəlir vergisi verirsə, idxalçı monopolistlər həm də gömrük rüsumu ödəyirlər. Bu da büdcənin formalaşmasında müsbət rol oynadığından hökumət monopolistlərə göz yumur.

Sahibkarın sözlərinə görə, bu məsələdə yerli istehsalçılar da diqqətli olmalıdırlar. Onların yaratdıqları brend altında bazarda xarici məhsullar da ola bilər.

**İqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, belə bir durumun yaracağı öncədən bəlli idi:** "Biz öncədən də demişdik ki, yerli istehsalın həcmi artırılmadan gömrük rüsumunun artırılması quş ətinin bahalaşmasına səbəb olacaq. Rəqabət mühitinin zəif olduğunu və yerli istehsalın bütün ehtiyacları ödəmədiyi şəraitdə bu, yerli şirkətlər üçün də qiymətləri qaldırmağa bir bəhanə olacaq. Çox güman ki, hazırda həmin prosesi izləyirik. Yerli istehsalın tələbatı tam ödəmədiyi bir vaxtda, xaricdən idxal olunan quş ətinin bahalaşması, bunun fonunda daxili istehsala tələbatın artması quş ətinin bahalaşmasına səbəb oldu. Təbii ki, bunun başqa səbəbləri də var. Bütün günahı istehsalçıların üzərinə artmaq olmaz. Quş yemləri və quşların müxtəlif viruslardan qorunması üçün inyeksiyalar və dərmanlar, digər baytarlıq vasitələri xaricdən idxal olunur və dolların bahalaşması istehsalçıların xərclərini də artırır. Bu, obyektiv səbəbdir və qiymətlərə təsir edir. Ancaq əsas səbəb gömrük rüsumlarının artırılmasıdır. Yerli quş ətinə tələbatın artırılması istehlakçı üçün heç bir müsbət nəticəyə səbəb olmadı. Əksinə, rəqabətsizlik mühiti genişləndi. Xaricdən gətirilən quş ətinin baha olması yerli məhsulların da bahalaşması üçün şərait yaratdı".

**Xaricdən gətirilən quş ətlərinin yerli məhsul adı altında qablaşdırılıb bazara çıxarılmasına gəlincə, Natiq Cəfərli bunun cinayətkarlıq olduğunu bildirdi və bu məsələ ilə hüquq-mühafizə orqanlarının məşğul olması zərurətini vurğuladı:** "Bu, istehlakçıların hüquqlarının pozulmasıdır və qanun pozuntusudur. Əgər belə hallar varsa, dövlət orqanları da, gömrük orqanları da hansı monopolistlərin quş əti idxal etdiyini yaxşı bilirlər. Əgər belə faktlar varsa, buna qarşı mübarizə aparılmalıdır. Çünki bu kimi hallar dövlətin daxili bazarın qorunması, yerli istehsalçının dəstəklənməsi adı altında idxal rüsumlarını artırılması addımını heçə endirir. Belə hallar nəinki yerli istehsalçını dəstəkləmir, əksinə onların istehsalı artırma stimulunu sıfıra endirir. Əgər belə davam etsə, yerli istehsalçılar bazarda uduzacaq. Xaricdən gətirilən quş ətinin daha ucuz olması yerli istehsalın zəifləməsinə səbəb olacaq. Nəticədə qiymətlər daha sürətlə bahalaşacaq".

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 30 (6644) 10 fevral 2017

**Məlum olduğu kimi, azərbaycanlı "qanuni oğru" Əli Heydərov (kriminal aləmdə "Albert Rıjiy" və "Albert Gəncəli" kimi tanınır) ötən ay 7 il müddətinə azadlıqdan məhrum edilib. 35 yaşlı azərbaycanlı kriminal avtoritetin məhkəməsi iki ilə yaxın idi Sankt-Peterbuq şəhər Frunze Rayon Məhkəməsində davam edirdi. Ə.Heydərov qanunsuz olaraq dövlət sərhədini keçməyə, saxta sənəddən istifadədə və qarətlərdə günahkar bilinirdi.**




# "Albert Gəncəli" "Lotu Quli" ilə necə düşmən oldu?



## Ötən ay 7 il müddətinə azadlıqdan məhrum edilən 35 yaşlı "qanuni oğru" Əli Heydərovu Aleksandr Puşkin "satıb"-vəkili danışdı

2014-cü ildən həbsdə olan "qanuni oğru" əsasən 2013-cü ildə baş vermiş bir soyğunçuluq hadisəsinə görə ittiham olunub. Belə ki, həmin vaxt internetdə "JEEP" avtomobilinin sərfəli qiymətə satıldığı haqda elan yerləşdirilib. Avtomobili almaq istəyən müştərilərdən biri görüş yerinə gələrkən cinayətkarlar onu soyub, pulunu alıblar. Cinayət işini Sankt-Peterburqun Fruzenski rayonunun prokurorluğu nəzarətə götürüb. İstintaq iddia edirdi ki, cinayət işinin təşkilatçısı azərbaycanlı avtoritetdir.

"Qanuni oğru"nun vəkili Dmitri Popov isə müvəkkilinin həbsdən azad edilməsi üçün çalışır. Vəkil crimerussia.com saytına deyib ki, "Albert Rıjıy"a əsasən Aleksandr Sergeyeviç Puşkinin *(məşhur rus şairinin adaşı)* ifadəsi əsasında hökm çıxarılıb. Vəkil deyib ki, belə bir adamın varlığından xəbərləri yoxdur, çünki o özünü hədəfə çıxarmamaq üçün gizli şahidlik edib.

"Albert Rıjıy" kimi tanınan Əli Müseyib oğlu Heydərov 1981-ci il fevral ayının 2-də Gəncədə anadan olub. "Albert Rıjıy" ləqəbi ilə məşhurlaşan



Ə.Heydərov "qanuni oğru" adını 2012-ci ildə Sankt-Peterburqda menqrel kriminal avtoritetlər Merab Mzarelua və Kardava qardaşları tərəfindən alıb. "Ded Xasan" klanında yer alan "Albert Rıjıy" Rusiyanın Şimal-Qərb regionu üzrə "smotryayuşi" təyin edilib. "Ded Xasan"ın qətlindən sonra da *("Ded Xasan" 2013-cü ilin yanvar ayının 16-da öldürülüb)* klana sadiq qalıb. O, Rusiya vətəndaşı ilə evlənib və iki uşağı Arxengelskdə qeydiyyatdadır. Bu səbəbdən də Ə.Hüseynov həm də "Albert Arxangelsk" kimi də tanınır. Xarakter etibarilə sərt olan azərbaycanlı "qanuni oğru" bahalı maşınlar həvəskarıdır və tez-tez avtomobillərini dəyişir. O, ötən ilin yayında Türkiyədə qətlə yetirilən "qanuni oğru" "Rövşən Lənkəranski" ilə də düşmən münasibətdə idi.

Onun "Lotu Quli" ilə münasibətlərinin hansı səbəbdən pis olduğu bilinmir, çünki onların hər ikisi "Ded Xasan" klanı ilə yaxın əlaqələrə malik olublar. 2014-cü ildə isə "Albert Rıjıy"a sui-qəsdlə bağlı Sankt-Peterburqda keçirilən məhkəmədə əsas sifarişçi kimi "Lotu Quli"nin adı hallanırdı.

Rəsmi ittihamda bildirilirdi ki, 2014-cü ilin mart ayının 18-də iki killer "Albert Rlıjıy"ı öldürmək məqsədilə onun yaşadığı evin ətrafında pusqu qurub. Moskva nömrəli "Audi A8?də öz qurbanını güdən killerləri yaxınlıqda daha bir avtomobil gözləyib. "Kalaşnikov" avtomatı və iki tapança ilə silahlanan muzdlular məqsədlərinə çata bilməyiblər. Polis azərbaycanlı avtoriteti qətlə yetirmək istəyənləri həbs edib. Polis bölməsində məlum ki, həbs edilənlər Naberejnıy Çelnı vilayətində qeydiyyatda olan Aleksey Şparuta və Ruslan Koryaqindir. Rusiya mətbuatı o zaman yazırdı ki, həbs edilənlər deyiblər ki, azərbaycanlı "vor zakon" un qətlinin sifarişini Peterburqda yaşayan bir nəfərdən alıblar. Bir neçə gün sonra sifarişçi - Gürcüstanda anadan olmuş 32 yaşlı İlham Hacıyev də həbs edilib. "Hamlet" ləqəbi ilə tanınan avtoritet əvvəl təslim olmaq istəməyib və yaşadığı mənzilin balkonundan qaçmağa cəhd edib. İkinci mərtəbədən düşmək istəyərkən polislər ona pnevmatik silahdan atəş açaraq yaralayıblar. Yüngül xəsarət aldığından səhəri gün onu istintaq təcridxanasına aparıblar. İddia olunurdu ki, "Hamlet" "Lotu Quli"nin qohumudur. Sifarişdə "Lotu Quli"nin qohumunun adının hallanması kriminal aləmin diqqətini dərhal bu mövzuya yönəltdi. "Albert Rıjıy" Piterdə "sxodka" keçirdi və bu qətlinin sifarişçisi kimi "Quli"nin adının hallandırılması geniş müzakirəyə səbəb olub, onlar arasında münasibətləri daha da kəskinləşdirib. Bu məsələ ilə bağlı keçirilən "sxodka"da iştirak edən Aliksey Qudına ("Lexa İrkutski") "Albert Rıjıy"a sui-qəsdə həmyerlisi "Quli"nin adının hallanmasına etiraz edir. Qudına iddia edir ki, sui-qəsd məsələsini "Albert Rıjıy" özü polisdəki adamlarının dəstəyi ilə quraşdırıb.

Məhkəmədə hakim sui-qəsd cəhdinin kimlər tərəfindənsə təşkil olunduğuna və hazırlandığına dair ittihamın əsassız olduğu qənaətinə gəlib. Nəticədə sui-qəsdin təşkilatçısı kimi ittiham olunan İlham Hacıyevə tam bəraət verilib. Muzdlu qatillər hesab edilənlər isə bəraət aldı.

Crimerussia.com saytı yazır ki, "Albert" indi də avtoritetlərin ciddi dəstəyinə malikdir.

❑ ORXAN

# Məcburi köçkün nişan üzüyünü qaytarıb, özünü asdı

**Sabirabad rayonunda intihar hadisəsi baş verib. APA-nın Mil-Muğan bürosunun xəbərinə görə, hadisə Rüstəmli kəndində Zəngilan rayonundan olan məcburi köçkünlər üçün salınmış şəhərcikdə qeydə alınıb.**

Zəngilan rayon sakini, 1988-ci il təvəllüdlü Məmmədov Asif Qubad oğlu çardaqdan özünü asaraq intihar edib. Lent.az-ın əldə etdiyi məlumata görə, Rüstəmli kəndində Zəngilan rayonundan olan məcburi köçkünlər üçün salınmış ərazidə yaşayan 1988-ci il təvəllüdlü Asim Məmmədov Şirvan şəhər sakini bir qızla nişanlı olub. Nişanlısı tez-tez onların yaşadığı evə gedib gəlirmiş. Qız evdəkilərə zarafatla Asifin onu qaçırdığını deyib. Bundan sonra ailələr arasında problemlər yaranıb. Problemlər böyüdükdən sonra isə oğlan qızla evlənməkdən imtina edib və nişan qaytarılıb. Bundan sonra qız tərəfin ailəsi baş verənlərə kəskin etiraz edib. Hətta oğlandan polisə şikayət ediblər ki, qızımızı qaçırıb. Fevralın 8-də Asim Məmmədov polis idarəsində olub və ifadəsi alınıb. Daha sonra o evə gələrək ailəsinə qorxduğunu, qız tərəfinin onu tutdurmaq istədiyini bildirib. Gecə qardaşı ilə söhbət edən zaman ölmək istədiyini, həmin qızla evlənmək istəmədiyini deyib. Fevralın 9-da səhər saatlarında evdə olan qardaşı arvadı qapının ağzında Asim Məmmədovun kəndirlə özünü asdığını görüb.

# Daha bir jurnalistin evi qarət olundu

**Jurnalist Bahar Rüstəmlinin evi qarət olunub. Bu barədə jurnalist özü məlumat verib. O bildirib ki, Biləcəri qəsəbəsində yaşadığı yeni yaşayış massivindəki həyət evindən naməlum şəxs və ya şəxslər oğurluq ediblər:**

"Hadisə vaxtı evdə heç kim olmayıb. Pəncərəni sındırıb evə daxil olublar. Evin altını-üstünə çeviriblər. Sonra 1500-2000 manat dəyərində qızıl-zinət əşyalarımı tapıb oğurlayıblar". Jurnalist bildirib ki, məsələ ilə bağlı Daxili İşlər Nazirliyinin "102" xidmətinə məlumat verilib: "Polis əməkdaşları gəlib izahatımızı alıb. Hazırda araşdırma aparılır".



# Dağlıq Qarabağdakı girovlarımızı xilas şansı yaranıb?

## Dilqəm Əsgərovun oğlu: "Rusiyanın qarşısına şərt qoymaq lazımdır ki..."

**Yəhudi əsilli blogger Aleksandr Lapşinin həbsi və Bakıya ekstradisiyasından sonra Ermənistanın işğalçı ordusu tərəfindən girov götürülən azərbaycanlıların azad olunmasına şans yarandığını düşünənlər artıb.**

Bir sıra ekspertlər hesab edir ki, Dağlıq Qarabağdakı separatçı rejimin əlində olan həmvətənlərimizin xilası üçün Lapşin faktorundan istifadə etmək olar. Xatırladaq ki, 2014-cü ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülüblər. Onlarla birlikdə olmuş Azərbaycan vətəndaşı Həsən Həsənov güllələnərək öldürülüb. H. Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib. İşğal altındakı Dağlıq Qarabağdakı separatçı rejim tərəfindən D. Əsgərov və Ş. Quliyevə "məhkəmə" qurulub. Qondarma məhkəmənin "qərarı" ilə D. Əsgərov ömürlük, Ş. Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilib.

Erməni girovluğunda olan D.Əsgərov Rusiya vətəndaşıdır. Bu mənada Rusiyanın Lapşinlə müqayisədə D.Əsgərova fərqli münasibət göstərməsi də suallar doğurur. Ancaq hesab olunur ki, məsələni Moskva ilə müzakirə etmək, girovların azadlığına nail olmaq üçün unikal şans yaranıb.

"Hazırda erməni girovluğunda saxlanılan Dilqəm Əsgərov Rusiya vətəndaşıdır. O, uzun müddətdir ki, erməni girovluğundadır. Dilqəm Əsgərov, Şahbaz Quliyev və Həsən Həsənov Qarabağa öz dədə-baba yurdlarını, əzizlərinin qəbirlərini ziyarət etmək üçün getmişdilər. Dilqəm Əsgərov Rusiya vətəndaşı olsa da, Kreml bununla bağlı səsini çıxarmır. Rusiya Ermənistandan tələb etmir ki, Qarabağa getməyə görə, adamı həbs etməzlər. Lakin Rusiya blogger Aleksandr Lapşinin Azərbaycana ekstradisiya olunmasına etiraz edir".

Bunu modern.az saytına açıqlamasında Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, deputat Qüdrət Həsənquliyev deyib. O bildirib ki, Lapşin Azərbaycan qanunlarını kobud şəkildə pozub və rəsmi Bakının razılığı olmadan işğal altındakı torpaqlarımıza səfər edib. Q. Həsənquliyev hesab edir ki, bu baxımdan, Rusiyanın Lapşinə görə Azərbaycana təzyiq etmək cəhdi əsassız və mənasızdır. Partiya sədri onu da qeyd edib ki, Lapşin Azərbaycanın istintaq orqanlarına öz təqsirini etiraf edərsə, bu halda məhkəmə ona daha yüngül cəza verə bilər.

**Deputat, bununla belə, vurğulayıb ki, Lapşin Ermənistanın girovluğunda olan Dilqəm Əsgərov, Şahbaz Quliyev və Elnur Hüseynzadə ilə dəyişdirilməlidir.**

"Azərbaycan üçün daha faydalı olardı ki, Lapşini sonda erməni girovluğunda olan 3 vətəndaşımızla dəyişərdi. Lapşinin həmin girovlarla dəyişdirilməsi daha məqsədəuyğun olardı. Düşünürəm ki, bu istiqamətdə diplomatik danışıqlar aparılacaq",-deyə Q. Həsənquliyev söyləyib.

**Dilqəm Əsgərovun oğlu Kürdoğlu Əsgərov "Yeni Müsavat"a açıqlamasında səslənən təklifi müdafiə etdi:** "3 ilə yaxındır ki, atam Dilqəm Əsgərov qanunsuz olaraq Kəlbəcərdə girov götürülüb və qanunsuz məhkəmənin qərarı ilə 86 il və ömürlük həbsə məhkum edilib. Rusiya başda olmaqla, bir çox xarici dövlətlər və beynəlxalq təşkilatlar bu haqsızlığa göz yumublar. İndi isə Lapşinin müdafiəsinə qalxmaqla bağlı fikirlərini söyləyirlər. Əsl cinayətkar Lapşindir. Mən elə fikirləşirəm ki, ona layiq olduğu cəzani verib, atama 3 il ərzində verilən işgəncələrin Lapşinə 3 gün ərzində verilməsini istəyirəm". K.Əsgərov deyir ki, Rusiya başda olmaqla, bir sıra ölkələr əvvəl-axır Lapşinin azadlığını tələb edəcəklər: "Rusiyanın qarşısına şərt qoymaq lazımdır ki, Dilqəm Əsgərov və Şahbaz Quliyevi siz ermənilərdən alın, biz də Lapşini sizə verək!"

❑ E.PAŞASOY

# Qiymətlərin dövlət tərəfindən tənzimlənməsinə ehtiyac var

## Hökumət bahalaşmanın qarşısını almaq üçün nə etməlidir...



**"Azərbaycan hökuməti inflyasiyanın əhaliyə mənfi təsirinin qarşısını almaq üçün proqram hazırlayır". Bunu jurnalistlərə açıqlamasında baş nazirin müavini Əli Əhmədov deyib. «Bu gün hökumətin həyata keçirdiyi bütün işlərin qarşısında duran məqsəd ölkədə qiymət artımının qarşısının alınmasından ibarətdir", - deyən baş nazirin müavini hesab edir ki, qiymət artımının Azərbaycanda yoxsulluq səviyyəsinə təsir etməsi haqqında həyəcan təbili çalmaq üçün əsaslar yoxdur.**

Əli Əhmədovun fikirləri cəmiyyətdə birmənalı qarşılanmayıb. Məlum olduğu kimi, hazırda əhalinin yaralı yeri məhz qiymət artımıdır. Təəssüflər olsun ki, ölkədə və dünyada gedən bütün iqtisadi proseslər də məhz bu bahalaşmanın artmasına səbəb olur. Bu mənada iqtisadçılar bahalaşmanın qarşısının alınması üçün bir çox addımların atılmasını tövsiyə edirlər.

**İqtisadçı ekspert Vüqar Bayramov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, təxminən 18 faizədək inflyasiya iqtisadiyyat üçün qorxulu deyil:** "Hökumətin mövcud siyasəti ondan xəbər verir ki, Mərkəzi Bank dövriyyədəki manat kütləsini azaltmaqla daha çox dollarlaşmanın qarşısını almağa çalışır. Bu da dolların məzənnəsinin müəyyən qədər tənzimlənməsinə xidmət edir. Ancaq xüsusilə böhran dövrlərində inflyasiyadan qorxmaq lazım deyil. Burada söhbət yüksək inflyasiyadan deyil, birrəqəmli inflyasiyadan gedir. Bizim hesablamalarımız onu göstərir ki, təxminən 18 faizədək inflyasiya iqtisadiyyat üçün qorxulu hesab edilə bilməz. O baxımdan hökumətin məqsədi inflyasiyanı cilovlamaq deyil, optimallaşdırmaq olmalıdır. Optimal inflyasiya bütün hallarda iqtisadiyyatın inkişafını stimullaşdırır və imkan verir ki, iqtisadiyyatın investisiya imkanları artsın. Sözsüz ki, bu məqamda həssas təbəqələrin inflyasiyadan yoxsullaşması baş verirsə, onların qorunmasına ehtiyac var".

**V. Bayramovun sözlərinə görə, hazırda manatın dollara nisbətən möhkəmlənməsi qiymətlərin müəyyən qədər sabit qalmasına şərait yaradacaq:** "Ancaq bu məqamda bir məsələyə diqqət yetirmək lazımdır ki, süni şəkildə və ya monopolistlərin əli ilə qiymət artımları baş verməsin. Hökumət buna nəzarət etməlidir. Qanunvericilikdə də bu nəzərdə tutulub. Bir ay öncə biz dolların manata nisbətən möhkəmlənməsini müşahidə edirdik, indi isə manatın dollara nisbətən məzənnəsi möhkəmlənib. Bu, növbəti dövrdə qiymətlərə təsir göstərən amildir. Təbii ki, onu da başa düşürük ki, bu gün satılan malların bir qismi əvvəlki həftələrdə gəlib və anbarlarda olan mallar satışa çıxarılır. Ancaq müəyyən müddətdən sonra indi sifariş verilən mallar satışa çıxarılacaq. O zaman bu qiymət azalmalarına gətirib çıxaracaq".

**İqtisadçının sözlərinə görə, hazırda qiymətlərin dövlət tərəfindən tənzimlənməsinə ehtiyac var:** "Ona görə ki, bəzi iş adamları bazardakı monopolistik vəziyyətdən və dollar-manat münasibətlərinin dəyişməsindən istifadə edərək qiymət artımlarına getməsinlər. Bəli, inflyasiyanın optimallaşdırılmasına ehtiyac var. Ancaq düşünmürəm ki, hədəf birrəqəmli inflyasiya olmalıdır. İndiki məqamda investisiya imkanlarının artırılması baxımından 18 faizə qədər inflyasiya normal hesab edilə bilər. Sadəcə, burada qeyd etdiyimiz kimi, həssas qrupların qorunmasına ehtiyac var. Bu isə onların əmək haqqı və pensiyalarının artırılması formasında həyata keçirilə bilər. Bunun özü də inflyasiya yarada bilər. Ancaq düşünmürəm ki, əmək haqqı və pensiyaların indiki məqamda artımı bazarda böyük inflyasiya yarada biləcək təsirlərə malik olacaq".

**Vüqar Bayramov inflyasiyanın yüksək olduğu dövrdə aşağı gəlirli insanlara birbaşa yardım və ya kompensasiyaların verilməsini tövsiyə etdi:** "Xüsusən 2015 və 2016-cı illərin inflyasiya ilə bağlı təhlilləri göstərir ki, inflyasiya artımının əsas səbəbi valyuta bazarındakı dəyişikliklərdir. Eləcə də bəzi ölkələrdə olduğu kimi həssas qruplara müəyyən güzəştlərin tətbiq edilməsi, müəyyən kompensasiyaların verilməsi mümkündür. Bu da onların vəziyyətinin yaxşılaşdırılmasına gətirib çıxara bilər. O baxımdan, birrəqəmli optimal inflyasiya prioritet olmalıdır. Bu yolla iqtisadiyyata sərmayə qoyuluşlarını artırmaq olar. Bununla yanaşı, həssas qrupların qorunması da həyata keçirilməlidir. Hazırda dollar zəifləyib. Bu mənada dövlət qurumları bazarda monitorinqlər keçirməlidir. Dolların ucuzlaşması o deməkdir ki, iş adamları malları nisbətən ucuz aldıqları malları yenə də baha qiymətə satmağa çalışacaqlar. Xüsusən də gündəlik tələbat məhsullarından söhbət gedir. Hökumət çalışmalıdır ki, bazar qanunları və iqtisadi qanunlar çərçivəsində qiymətlərin azaldılmasına nail olsun".

❑ **Nərgiz LİFTİYEVA**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarɪn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



# Bakı yolları qardan sonra niyə dağılıb?

## **Ekspert:** "Bu o deməkdir ki, asfalt normal qaydada çəkilməyib, texnologiyalara riayət olunmayıb"

**Bakıya ayın əvvəlində yağan qar çox güclü olmasa da, yollarda ciddi problemlərə səbəb olub. Paytaxt yolları qarın əriməsindən sonra müharibədən çıxmış vəziyyəti xatırladır. Bəzi yollarda asfalt örtüyü üzərində sanki partlayış olmuş kimi dağıntılar yaranıb. Çatlar daha da böyüyüb və nəqliyyatın hərəkətinə çətinlik yaranıb.**

Bəs görəsən, qar yağan zaman asfalt üzərində bu cür dağıntıların yaranması normaldırmı? Yoxsa bunun səbəbi yolların salınması zamanı yol verilən yeyinti hallarıdır?

**Yol-nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu o deməkdir ki, asfalt normal qaydada çəkilməyib, texnologiyalara riayət olunmayıb: "Sonradan da həmin yola normal qulluq edilməyib. Bu həm də o deməkdir ki, asfaltın keyfiyyəti qaydasında deyil. Bu, problemin məhz qış vaxtı meydana çıxmasının səbəbi isə odur ki, yollar günlərlə su altında qalır və asfalt örtüyü islanır. Su isə donanda şişir, genişlənir, hər yeri dağıdır. Bu, təbiətin qanunudur. Su hara dolubsa və orada donub qalıbsa, həmin asfalt örtüyü partlaya bilər. Asfalt örtüyünün çəkildiyi materiallar normal deyil. Yolun yatağı normal deyil. Yollardakı çatlar vaxtında aşkarlanıb aradan qaldırılmır. Su gəlib həmin çatlara dolanda oranı dağıdır. Mən hətta körpünün üstündə asfaltın dağıldığını görmüşəm. Körpünün üstündə asfalt niyə dağılmalıdır? Orada yolun yatağı da yoxdur. Deməli, bu, normal asfalt örtüyü deyil".

**Ə. Hüseynovun sözlərinə görə, asfalt örtüyünə 20-30 il zəmanət verilsə də, daim nəzarətdə saxlanılmalıdır:** "Elə yollar var ki, ona 5-10 il zəmanət verilir. Yolu salan şirkət də bildirir ki, bu yolu sifariş əsasında belə tikib. Ara küçələrdə bu məsələyə diqqət edilməsə də, respublikanın əsas yollarında yüksək səviyyəli texnologiyalardan istifadə olunmalıdır. Çünki bu yolun çəkilməsinə xərclənən pullar həddindən artıq yüksək rəqəmlərlə ölçülür. Yolun inşası başa çatdıqdan, istifadəyə verildikdən sonra da daim nəzarət olunmalıdır. Yolu istifadəyə verdikdən sonra onu təmir etmək üçün 50 il gözləməyə ehtiyac yoxdur. Daim nəzarət olunmalıdır".

**"Azəravtoyol" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli isə bildirdi ki, bu, normal bir haldır:** "Yağıntı zamanı yolun aşınma qatında müəyyən qədər deformasiya olur. Bu deformasiyaların aradan qaldırılması və təmiri istiqamətində addımlar atılır. Hazırda bir çox yollarda belə problemlər qalır və onların təmiri davam edir. Bu məsələdə yolun keyfiyyətindən söhbət getmir. Bu daha çox qəsəbələrarası yollarda müşahidə olunur. Bakının əsas yollarında belə bir problem yoxdur. Ara küçələrdə, uzun müddətdir təmir olunmayan yollarda deformasiya yaranıb. Bu da normal haldır və aradan qaldırılır".

❑ **Nərgiz LİFTİYEVA**

**Elan**

**Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Heydərov Vüsal Vahid oğlunun tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

Yeni Müsavat
N 30 (6644) 10 fevral 2017




# Seçimi insan özü edir - Əyyami-Fatimə (s.ə) ərəfəsində düşüncələr

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Əyyami-Fatimə (s.ə.) günləri ərəfəsindəyik. Bu günlər Peyğəmbərimizin gözünün işığı, dünya və axirət xanımlarının seyyidəsi Həzrət Fatimeyi-Zəhranın (s.ə.) mübarək adı ilə bağlıdır. Uca Allahdan dualarımız budur ki, bizə bu günlərin feyzindən bəhrələnməyi nəsib etsin.**

### Qətldən də böyük günah

Bugünkü bəhsimizi günahi-kəbirələrdən, böyük günahlardan birinin təhlilinə həsr edəcəyik. Mübarək dinimiz bu günahı o qədər dəhşətli bilir ki, hətta qətl kimi böyük cinayətdən də ağır hesab edir. Qurani-Kərimin "Bəqərə" surəsinin 191-ci ayəsində bildirilir: "Fitnə - qətldən daha şiddətlidir". Həmin surənin 217-ci ayəsində isə buyurulur: "Fitnə salmaq qətl törətməkdən daha betər (günahdır)".

Günahsız insanın qətlinə dinimizin münasibəti aydındır - belə adamın aqibəti əbədi cəhənnəm odunda bulunmaqdır. İndi sözügedən günah bundan da ağır bilinir. Nədir bu günah? Bunun adı fitnədir. Məhz bu fitnədir ki, insanları, camiələri bir-birinə qarşı qoyur, diri, dinamik, aktiv toplumları sönüklüyə və dağınıqlığa düçar edir.

«Fitnə» kəlməsinin bir çox lüğəti mənası vardır. Amma burada qarmaqarışıqlıq yaratmaq, cəmin asayişini, rahatlığını, əmin-amanlığını aradan aparmaq, insanlar arasında qarşıdurma yaratmaq, onları bölmək, parçalamaq, insanları mənəvi əzab-əziyyətə düçar etmək mənası tətbiq edilir.

İslam tarixinə nəzər salsaq, hər addımda fitnənin qoyduğu ağır izlərə rast gələrik. İstər Rəsuli-Əkrəmin (s) Məkkə dövrü olsun, istər Mədinə dövrü, istər Rəsulun (s) dünyadan köçməsi ərəfəsində cərəyan edən faciəvi olaylar, istər xanım Fatimeyi-Zəhra (s.ə.) müsibəti - bunlar hamısı fitnənin məhsuludur. Sonralar bu fitnə zəifləmədi, əksinə yeni bir vüsət aldı. Ümmətin köklü islahatlarını həyata keçirən Həzrət Əliyə qarşı (ə) aparılan "Cəməl", "Süffeyn", "Nəhrivan" müharibələri və sonda İmamın (ə) məsciddə namaz qılarkən, səcdədə olarkən zəhərli qılıncla zərbətlənməsi, İmam Həsənin (ə) zəhərləndirilib şəhadətə yetirilməsi və babası Rəsulullahın (s) yanında onun dəfn olunmasına belə, imkan verilməməsi, İmam Hüseynin (ə) Kərbəla faciəsi ilə sonuclanan lənətlik Yezid fitnəsi və s. Acı təəssüflə qeyd etməliyik ki, tarix bu cür fitnələrlə doludur.



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

### İnsanları fitnəyə düçar edənləri əbədi əzab gözləyir

Qeyd etdik ki, Quran fitnəni ən pis, ən ağır, dinindən, qövmündən asılı olmayaraq, birmənalı surətdə bütün insanlar tərəfindən ən mənfi bilinən bir günahla - nahaqdan günahsız insanı öldürməklə müqayisə edir. Qətl zamanı fərdin, yaxud fərdlərin fiziki ölümü baş verir. Amma fitnə törədilərkən fərdin, fərdlərin, toplumların mənəvi məhvi baş verir. Fitnə insanların müvəqqəti, dünya həyatlarını puç etməklə kifayətlənməyərək, əbədi həyatına əl atır, gözəl axirət fürsətini birmənalı tapdayır. Dinimiz fitnəni o qədər ağır günah hesab edir ki, hətta Qurani-Kərimdə onun aradan getməsi üçün mübarizəyə qalxmağa qədər tövsiyələr vardır: "(Onlarla) fitnə aradan gedənədək vuruşun" ("Bəqərə" surəsi, 193-cü ayə). Yəni fitnənin topluma vurduğu zərbə o qədər güclüdür ki, Allah Təala cihad kimi son özünümüdafiə tədbirinə əl atmağa izn verir.

Qurani-Kərimin "Buruc" surəsinin 10-cu ayəsinə diqqət edək: **"Həqiqətən, o kəslər ki, mömin və möminələri fitnəyə düçar edərlər və sonra tövbə etməyərlər - (onları) cəhənnəm və yandırıb-yaxan əzab gözləyir".**

Məsələnin mahiyyətinə vardıqda görürük ki, əslində söhbət toplumun nüvəsinə zərbə endirmək, onu zəiflətmək, pərən-pərən salmaqdan gedir. Məhz fitnənin dağıdıcı gücünü nəzərə alan qüvvələr informasiya müharibəsinə bu qədər önəm verir, külli miqdarda vəsait sərf edirlər. Müharibələrin tarixinə nəzər salsaq, görərik ki, düşmən tərəf hər zaman təxribatçı qüvvələrin köməyi ilə qarşı tərəfin vəhdətini pozmağa çalışmış, topluma qarışıqlıq yeritməyə səy etmişdir. Bunun bariz nümunəsi olaraq, nasist ideoloqlarından olan Göbbelsi göstərmək olar. O, informasiya ilə işləyən mütəxəssisləri təlimatlandıraraq, demişdir: **"Ağ yalan danışmağa üstünlük verin. Yalan nə qədər ağlasığmaz olarsa, insanlar ona bir o qədər tez inanarlar".**

İndiki zəmanədə texnologiyalar dəyişsə də, mahiyyət min il öncəki kimidir: toplumun içinə dağıdıcı amilləri salaraq, nəticədə o topluma qalib gəlmək. Sadəcə, bu günün göbbelsləri daha məharətlə hərəkət edir, daha inandırıcı vasitələrdən istifadə edərək, qlobal kommunikasiya sistemlərinin yaratdığı imkanlardan faydalanırlar. Tədricən, yavaş-yavaş işləyərək, toplumlara dezinformasiya aşılayırlar, reallıqdan tamamilə fərqli təsəvvürlər yaradırlar.

Müharibə şəraitində olan ölkəmiz üçün bu mətləblər xüsusilə aktualdır. Düşmən ilk növbədə milli-mənəvi, mental dəyərləri hədəf seçmişdir. Artıq torpaqları azad etməyin qeyri-mümkünlüyü barədə, vətənpərvərlik, namus, qeyrət kimi hisslərin lazımsız atavizm olması barədə fikirlər tədricən insanların beyninə aşılanmaqdadır. Bunun qarşısına yalnız vəhdətlə çıxmaq olar. Və bu vəhdət ötəri olmayan dəyərlərə söykənməlidir ki, heç bir düşmən toplumun daxilinə pərakəndəlik sala bilməsin. Əks təqdirdə, məğlubiyyət kimi dəhşətli perspektiv təhlükəsi mövcuddur. Bunları bütün gerçəkliyi ilə qəbul etmək və insanlara aydınlatmaq gərəkdir.

### Fitnə - mənəviyyatın məhvidir

Bəşərin xilası üçün gələn, rəhmət üçün göndərilən Peyğəmbər (s) buyurmuşdur: **"Fitnəyə səy edən, fitnə törədən, fitnə yaradan şəxs Allah Təalaya kafir olmuşdur, hərçənd müsəlman olsa da belə".**

Öncə fitnənin qətldən daha ağır günah olduğuna dair dinimizin göstərişinə toxunduq. Məlum olur ki, qətl insanı fiziki məhv etmək, onun müvəqqəti dünyada yaşayışına son qoymaqla səciyyələnən bir cinayətdirsə, fitnə - insanın ruhunu qəsb edən, onun axirətinə, əbədi həyatına əl uzadan bir ağır günahdır. Fitnələr nəticəsində bir cür ab-hava yaranır ki, insan fiziki mövcud olsa da, ruhiyyəsi aradan gedir. Mahiyyət etibarilə, fitnə - ruhun məhvinə rəvac verən, mənəviyyatın ölümü ilə sonuclanan bir amildir. Fitnənin hədəfi odur ki, insanlar iradəvi, şüurlu məxluqdan idarəolunan, destruktiv mühitin təsiri altında yaşayan bir məxluqa çevrilsin.

Fitnənin əsas gücü nədir? O insanlar ki, möhkəm iradə göstərir, hər zaman qəti mövqe sərgiləyir - belələri, adətən, toplumda azlıq təşkil edir. İblisin (lən) işi bunlarla deyil. İblisin işi passiv çoxluqladır. O insanlardır ki, bir-birinə baxıb eyni təbiətli səhvlərə, məntiqsiz, qeyri-rasional hərəkətlərə yol verir, öz aqibətlərinə biganə yanaşırlar. Bunlardır iblisin əsas ordusu. Özləri də bilmədən düşmən dəyirmanına su tökənlər. Müti çoxluq.

Demək, fitnənin əsas hədəfi - toplumun müsbət dəyərlərə əsaslanan bünövrəsini laxlatmaqdır. Buna müqavimət göstərən azlıq, hərc-mərcliyin qurbanı olan çoxluğun elə özü tərəfindən əziləcək, səsləri alınacaqdır. Müti çoxluq əksər hallarda onu ayıltmaq istəyən fərdlərə qarşı aqressiv olur.

### Seçimi insan özü edir

Qeyd etdik ki, fitnənin hədəfi müxtəlif olur. İnsanların həyat tərzinə, düşüncələrinə, mehribanlığına, əqidələrinə, ibadətlərinə və digərə yönəli fitnələr var. Amma hamısının ümumi hədəfi var - insanları sabit, arxayın durumdan çıxarmaq, onların arasına hərc-mərclik salmaq. Bunun ən bariz nümunəsi Həzrət Rəsulullah (s) dünyadan köçdüyü zaman baş verən hadisələrdir. Müəyyən qüvvələr o zaman elə bir fitnəyə yol vermişlər ki, ümmət indiyədək bunun altını çəkir. Peyğəmbərin (s) Əhli-Beyti (ə) iqsadi blokadaya salınır, ictimai həyatdan təcrid olunur. Fitnə ayaq tutub, yeriyir.

Fitnə - böyükli-kiçikli iblislərin ən məhsuldar silahı olaraq qalır. Hər bir insana özünəməxsus açar tapmaqla, müxtəlif çeşidli xırda hissləri oynatmaqla insanları idarə etməyə çalışır, onları birləşməyə, vəhdətə gəlməyə qoymur iblis (lən). Lakin hər bir şeydə olduğu kimi, seçimi insan özü edir: iblisin göstərdiyi cığırla hərəkət etmək, yoxsa əqlin, rasionallığın təklif etdiyi vasitələrdən bəhrələnmək kimi 2 yol arasında insan özü iradəvi seçim edir.

Bəli, hər bir şeydə olduğu kimi, seçimi insan özü edir. Allah Təala bizi də, cəmi bəşəri də düzgün seçim edənlərdən qərar versin, inşəallah!

### Əhli-Beyt (ə) Nuhun gəmisinə bənzər...

Həzrət Fatimənin (s.ə.) anım günlərini yaşayırıq. Həzrət Fatimənin (s.ə.) şəhadət günləri ərəfəsindəyik. İnanc əhli bu hüzn, kədər dolu günləri layiqincə yaşamalıdır. Bu anımda əsas hədəf nədir? Xanımın (s.ə.) yaşadığı həyatı başa düşmək, onun miras qoyduğu İlahi ideallara riayət etmək, insanın yaradılışının fəlsəfəsinə varmaq. Xanımın (s.ə.) İlahi xidmətlə dolu həyatından ibrət götürərək, kamilliyə can atmaq.

Həzrət Fatimə (s.ə.) - Əhli-Beytin (ə) bütün müqəddəsliyini sanki özündə cəmləşdirən, insanlara hidayət yolunu göstərən Peyğəmbər (s) yadigarıdır. Təbərrük üçün Həzrət Əlidən (ə) Əhli-Beytin (ə) məqamı barədə nəql edilən hədisə diqqət yetirək: **"Kim Ali-Muhəmmədi (Əhli-beyti) sevdiyi halda ölərsə, şəhadət mərtəbəsinə yetişmiş halda ölür. Kim Ali-Muhəmmədi sevdiyi halda ölərsə, bağışlanmış olaraq ölür. Kim Ali-Muhəmmədi sevərək ölərsə, tövbə etmiş halda ölür. Kim Ali-Muhəmmədi sevərək ölərsə, imanı kamil mömin olaraq ölürE.. Bunu da bilin ki, kim Ali-Muhəmmədə nifrət edərək ölərsə, kafir kimi ölər".**

Əhli-Beyti (ə) sevmək nə deməkdir? Bu, sadəcə, dildə məhəbbəti iqrar etmək deyildir. Bu məhəbbətin təzahürü olmalıdır. Təzahürü də Allaha bağlı olmaqdır, imanla yaşamaqdır, hər bir vəziyyətdə Peyğəmbər (s) yolunun yolçusu olmaqdır. Bu sevgi - əslində ən böyük ibadətdir, insanı təmizləyən, özünə qaytaran bir amildir. Peyğəmbərimiz (s) və Əhli-Beyt (ə) - ən kamil, ən düzgün seçimin misdaqı, nümunəsidir. Həzrət Əlidən (ə) buyurulur: **"Yaxşılıqlardan ən üstünü - bizi sevmək, pisliklərdən ən pisi isə bizə ədavət bəsləməkdir".**

### Qurani-Kərimin buyuruşu

Həzrət Peyğəmbərin (s) Əhli-Beytini (ə) sevməyi Allah Təala Qurani-Kərimdə buyurmuşdur. Və burada vurğulanmışdır ki, bu sevgi - insanların özü üçündür. Necə ki, Peyğəmbərimiz (s) buyurmuşdur: **"Əhli-Beytim - Nuhun gəmisinə bənzər. O gəmiyə kim minərsə, xilas tapar, kim təkəbbürlük edib minməzsə, boğulub gedər".**

Həzrət Əlidən (ə) nəql edilən digər mübarək hədisdə iman əhlinə xitabən dost-düşmən olmağın meyarı çatdırılır: **"Həzrət Muhəmmədin həqiqi dostu - ona qohumluğu çatmasa belə, Allaha ən çox ibadət edəndir. Həzrət Muhəmmədin (s) düşməni isə, ona qohumluğu çatsa belə, Allaha qarşı üsyan edəndir".**

Mübarək hədisdə çox mühüm məqam vurğulanır. Vurğulanır ki, Peyğəmbərimizə (s) ən yaxın insan - təqva libasına bürünən, Allaha xidmət edəndir.

Əhli-Beytin (ə) məqamı barədə Həzrət Əlidən (ə) nəql edilən digər hədislərdə bildirilir: **"Peyğəmbərlik ağacı - bizik. Vəhyin nazil olduğu yer, mələklərin gəlib-getdiyi mahal, hikmətlərin qaynaqları, elmin mədənləri - bizik".**

**"Rəsuli-Əkrəmin libası, onun dostları, ona xidmət edənlər, onun yanına açılan qapılar - bizik. Evlərə o qapılardan girmək olar. Qapıları qoyub, başqa yerlərdən daxil olanlar - oğrulardır. (Onlar) cəzaya rast gələrlər".**

Allah Təbarəkə və Təala bütün iman əhlini Əhli-Beyti (ə) sevənlərdən, Əhli-Beytin (ə) qapısından dinə daxil olanlardan qərar versin, inşallah!

**Allahım, ümmətin və bütün bəşəriyyətin fitnədən qurtulmasını nəsib et!**

**Allahınm, iman əhlini dünya və axirətdə Peyğəmbər (s) və Əhli-Beytindən (ə) ayrı düşməyə qoyma, müşkülləri həll et!**

**Allahım, işğal altında olan torpaqların tezliklə azad olmasını, 12-ci İmam - Həzrət Mehdi Sahib-əz-Zamanın (ə.f.) tezliklə zühur etməsini nəsib et! Amin!**

YENİ MÜSAVAT

# Son səhifə

*N 30 (6644) 10 fevral 2017*



## 70 yaşlı cütlük qaldıqları hotelə intihar məktubu yazıb getdilər

**İzmirin turistik bölgəsi olan Çeşmədə qəribə hadisə baş verib. Belə ki, Çeşməyə istirahətə gələn 70 yaşlarındakı Ülkər və Altan Çətin cütlüyü qaldıqları hotelə intihar məktubu qoyaraq qeyb olublar.**

Hotel rəhbərliyi yaşlı ər-arvadın gecə oteldən çıxdığını, amma geri qayıtmadığını polisə bildirəndən sonra sonuncu araşdırma aparıb. Cütlüyün otağında bir intihar məktubu və hotel işçilərinə bəxşiş olaraq yatağın üstünə qoyulmuş 1000 manat pul tapılıb. Cütlük məktubda xərçəng xəstəsi olduqlarını və nankor övladlarına görə çox acı çəkdiklərini yazıb. Polis hər yerdə Altan cütlüyünü axtarır. İntihar edib-etmədiyi hələ dəqiqləşməyən 70 yaşlı ər-arvad 6 fevral tarixində, gecə yarısı 01.30 radələrində mədələrinin ağrıdığını deyərək, hoteli tərk ediblər. Həqiqət isə hotel otağını təmizləyən xidmətçi üzə çıxıb. Xadimə təmizlik üçün gələndə orada iki ayrı zərf görüb. Zərflərin birində intihar məktubu, digərində isə hotel işçiləri üçün bəxşiş olub.

## Pul saymaq insanın beyin qan dövranını yaxşılaşdırır

**Minessota Universiteti (ABŞ) alimləri pul saymağın insanın sağlamlığına və əhvalına olan təsirini araşdırıblar. Araşdırmalar pul saymağın stresi azaltdığını, əhvalı və beyin qan dövranını yaxşılaşdırdığını təsdiqləyib. Araşdırma göstərib ki, pul saymaq stresi azaldır, əhvalı və beyin qan dövranını yaxşılaşdırır.**



Söhbət həm kağız puldan, həm də xırda puldan gedir. Bunun sadə elmi izahı var - barmaqların kiçik motorikası (barmaqların hərəkətləri) beyinin fəaliyyətinə müsbət təsir edir, onu stimullaşdırır.

Lakin həkimlər xəbərdarlıq edir - pul ən çirkli "əşya"lardan biri sayılır. Araşdırmalar göstərib ki, pulların üzərində 200-ə (!) qədər müxtəlif ziyanlı mikrob ola bilər.

## San Fransisko metrosunun süpürgəçisi ildə 271 min dollar qazanıb

**"Transparent California" təşkilatı aydınlaşdırıb ki, Amerikanın San Fransisko şəhərindəki metrolardan birində süpürgəçi ildə 270 min dollar qazanıb. 2015-ci ildə Lyan Çjao Çjanın rəsmi məvacibi 58 min dollar olub. Bundan başqa, o, yüksək iş potensialına görə 162 min dollar da qazanıb. Bonusları da əlavə etsək, onun ümumi qazancı 271 243 dollar olub.**

"Transparent California"da aydınlaşdırıblar ki, sənədlərə əsasən, Çjan hər gün işə gəlib. Bura bazar günləri, bayramlar və istirahət günləri də daxildir. Onun gün ərzindəki iş müddəti 17 saat təşkil edib. İzləmə kameralarındakı qeydlərə görə, təmizlikçi periodik olaraq anbarda gizlənib və saatlarla ordan çıxmayıb. Rəhbərlik isə deyib ki, Pauell stritt stansiyasını evsizlər çox çirkləndiriblər. Bu səbəbdən də təmizlikçilərin hər zaman üçün görəcəyi işlər olub. Çjanın sözlərinə görə, ona, həvalə olunan hər işi görürmüş.



## Toyunda gözəl görünmək istədi, həyatı məhv oldu

**Kristina Mayls adlı Britaniya vətəndaşı toyunda gözəl görünmək üçün arıqlamaq qərarına gəlib. Nəticədə 23 yaşlı qadın pəhriz saxlayaraq 19 kiloqram artıq çəkini itirib və bədən ölçüləri 10 ölçü kiçilib. Lakin əsl problem bundan sonra başlayıb. Belə ki, qadın çox çəki itirdiyinə görə bədəninin dərisi sallanıb. Bu səbəbdən gənc qadın yaşlı qadına bənzəyib.**

Səhiyyə də qadının dərdinə çarə olmayıb. Belə ki, yerli səhiyyə təşkilatı əməliyyat yolu ilə artıq dərini götürməyə razı olmayıb. Razı olsa belə, qadının özünün bu əməliyyata pulu olmadığı üçün o, çarəsiz qalıb. "Tək istədiyim toy günümdə arıq və gözəl gəlin olmaq idi. Ancaq bu pəhriz mənim həyatımı və toyumu bərbad etdi", - deyən qadın tək çıxış yolunun yenidən kökəlmək olduğunu bildirib. Arıqlayandan sonra intim həyatı belə məhv olan Kristinanın ilk həyat yoldaşı onu tərk edib.

Ayrılandan sonra yenidən nisbətən kökələn qadın təkrar ailə qurub. İndi cütlüyün 2 övladı var.




QOÇ - Kifayət qədər uğurlu bir gün yaşayacaqsınız. İştirakçısı olduğunuz hər bir proses yalnız zövqünüzlə uyğunluq təşkil edəcək. Özünüzə inamı artırmaqla uğurları yaxınlaşdırın.

BUĞA - Səhər saatlarını gərgin şəraitdə keçirsəniz də, özünüzü təmkinli aparmaqla gözlənilən xoşagəlməzliyi dəf edə biləcəksiniz. Nahardan sonra isə sevindirici hadisələrin şahidi olacaqsınız.

ƏKİZLƏR - Astroloji göstəricilər ümumi ovqatınızın yüksək olacağını bildirir. Maraqlı insanlarla rastlaşma ehtimalınız da böyükdür. Ulduzlar ziyarətə getməyi məsləhət görsə də, uzaq yola çıxmaq olmaz.

XƏRÇƏNG - Göy qübbəsi pulla bağlı məsələlərdə ehtiyatlı olmağı tövsiyə edir. Bir qədər qənaətcil olmağınız vacibdir. Kiməsə borc vermək və ya maliyyə sövdələşmələrinə girişmək yolverilməzdir.

ŞİR - Fəaliyyət dairənizi genişləndirmək üçün durmadan işə başlayın. Nəzərə alın ki, bu addım karyeranız üçün böyük əhəmiyyət daşıya bilər. Bu gün qazanmaq ehtimalınız böyükdür.

QIZ - Qarşılıqlı münasibətlərdə güzəştli mövqe seçin. Risk tələb edən işlərə isə girişməyin. Yaxşı olar ki, soyuq və spirtli içkilərdən, duzlu qidalardan mümkün qədər uzaq olasınız.

TƏRƏZİ - Səhhətinizlə bağlı nasazlığı nəzərə alıb hansısa qeyri-adi və yeni işlərə başlamayın. Yaxşısı budur ki, əsas vaxtınızı mənzil şəraitində keçirəsiniz. Axşama yaxınsa qonaq getmək olar.

ƏQRƏB - Həftənin ən uğurlu gününü yaşayacaqsınız. Bir tərəfdən ailə-sevgi münasibətlərində, digər tərəfdənsə işgüzar sövdələşmələrdə vəziyyət xeyrinizə cərəyan edəcək. Səfər də mümkündür.

OXATAN - Əsas enerjinizi sevgi amilinə yönəldin. Çalışın ki, hər bir kəlmənizdə, hər bir ifadənizdə özünüzə qarşı rəğbət oyadasınız. İndiki sərt cəmiyyətdə kiminsə qəlbinə dəymək savab iş deyil.

OĞLAQ - Ümumi çalarlarına görə gərgin gün olsa da, özünüzü ələ almağı bacarmalısınız. Çünki qarşınızda duran perspektivlərə yetişmək üçün hansısa dedi-qoduya əhəmiyyət verməməlisiniz.

SUTÖKƏN - Həddindən ziyadə uğurlu təqvimdir. Ələlxüsus da saat 12-16 arası bəxtiniz gətirə bilər. Həmkarlarınızla aranızda yaranmış soyuqluq səngiməyə başlayacaq. Hətta varlanmaq ehtimalınız da var.

BALIQLAR - Hiss olunur ki, sizi sevməyənlər artmaqdadır. Lakin ruh düşkünlüyünə mübtəla olmaqdansa, deyildiyi kimi olmadığınızı sübut etməlisiniz. Bu gün maraqlı görüşlərdə iştirakınız gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Balıqçı toruna 700 kiloluq dana düşdü



**Türkiyənin Kocaeli şəhərinin Kandıra bölgəsində balıq tutmaq üçün Qaradənizə qayıqla çıxan balıqçıların toruna 700 kiloluq dana düşüb. Əli Koç və Dəniz Koç adlı balıqçılar Qaradəniz sahillərində torlarını ataraq qənimət gözləməyə başlayıblar. Bir müddət sonra torun dartıldığın görən qardaşlar sevinib. 112 metr dərinlikdən çıxarılan tora 700 kiloluq dananın "ilişməsi" isə onları xeyli təəccübləndirib. Balıqçılar təxmin edirlər ki, bu dana ölkə xaricindən idxal edilən heyvanları daşıyan gəmilərin birində olub və öldüyü üçün onu dənizə atıblar.**

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100